Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 84 (8107) CÜMƏ, 19 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Sözünə sadiq PREZİDENT

## Ötən bir il ərzində dövlətin yürütdüyü siyasət mədəniyyət sahəsinin də inkişafına böyük dəstək olub

Ötən bir il mədəniyyət sahəsində də uğur və nailiyyətlərlə yadda qalıb. Bu gün Azərbaycanda keçirilən beynəlxalq musiqi, incəsənət festivalları dünyada geniş əks-səda doğurmaqdadır.

Hər il olduğu kimi, ötən ildə də mədəniyyətimizin təbliğinə xidmət edən tədbirlərin, genişmiqyaslı layihələrin yüksək səviyyədə hazırlanmasında və həyata keçirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun müstəsna xidmətləri olub. Fondun həyata keçirdiyi layihələr ölkəmizin ümumi mədəniyyət mənzərəsinin ən önəmli hissəsidir.

Ardı 6-cı səh.



# İnkişaf sürətlənəcək, islahatlar daha geniş miqyas alacaq

## İlham Əliyev prezidentliyinin bir ilini xalqla görüşdə qeyd etdi və yeni hədəfləri açıqladı

İlham Əliyevin növbəti prezidentlik müddətinin ilk ildönümünü xalqın əhatəsində, özü də qədim neftçıxartma məkanı kimi tanınan yaşayış məntəqəsində qeyd etməsində şübhəsiz, əlamətdar rəmzlik də var.

Əvvəla, dövlət başçısı liderlik missiyasının yeni mərhələsinin ilkin hesabatını yenə də öz vətəndaşlarına verirdi. Digər tərəfdən, Qaraçuxurda abadlaşdırılıb yenidən qurulan Neftçilər parkı ölkəmizdə yeni sima alan yüzlərlə istirahət məkanlarından olsa da, burada da son bir ilin fəaliyyət fəlsəfəsinin məntiqi davamı aşkar görünürdü: Azərbaycan müasir inkişafının rəhni olan neft strategiyası sayəsində bu gün “qara qızıl”ı insan kapitalına çevirə bilib və qeyri-neft sektorunun bütün istiqamətləri üzrə sürətli yüksəlişə nail olub.

### Sosial artım 40 faizdən 3 dəfəyədəkdir

Tarixin ən qüdrətli Azərbaycanının yeni uğur salnaməsinə son bir il həqiqətən də möhtəşəm nailiyyətlər, mühüm göstəricilərlə həkk olunub. Dünən Prezidentin öz xalqı - bir il öncə 86 faizlik etimadla ona yenidən liderlik mandatı verən seçiciləri ilə ünsiyyəti də əslində elə hesabat xarakterli idi.

Hesabatlılıq İlham Əliyevin idarəçilik üslubunun əsas elementlərindəndir və şəffaflıq, məsuliyyət kimi öhdəliklərlə birgə Prezident fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Son 16 ildə, xüsusən isə ötən bir il ərzində xalqla intensiv keçirilən hər bir görüşdə Prezident ölkədə görülən işlər, islahatlar barədə məlumat verir, vətəndaş rəyini öyrənir, yeni hədəflər barədə söhbət açır.

Dünənki görüşün məzmunu da bu yöndə idi. İlham Əliyev yeni keyfiyyət mərhələsinə qədəm qoyan, ən əsası isə artıq daha da geniş miqyas alan islahatların mahiyyəti barədə əhalini məlumatlandırdı. Prezident bir daha vurğuladı ki, Azərbaycanın iqtisadi vəziyyəti, maliyyə durumu yaxşıdır və büdcənin əsas sosial xərclərindən başqa, ora daxil olan əlavə vəsaitlər də yenidən məhz sosial sahəyə yönəldilir.

Elə sadəcə son iki ayda İlham Əliyevin yeni sosial islahatlar paketinin məğzini aydınlaşdırsaq, analoqsuz qayğı və himayədarlığın şahidi oluruq. Mübaliğədən uzaq olaraq etiraf etməliyik ki, “İnkişafın Azərbaycan modeli”nin, “Qlobal böhranda milli inkişaf strategiyası”nın banisi - İlham Əliyev həm də dünyada təkrarı, müqayisəsi az tapılan sosial dəstək konsepsiyasının da müəllifidir.

Geniş təfərrüata varmadan bir neçə məqamı qeyd edək. Cəmiyyətin bütün təbəqələrini əhatə edən 3 milyon 500 minədək insan İlham Əliyevin təşəbbüsü ilə həm 40 faizdən 3 dəfəyədək artımla müşayiət olunan sosial dəstəyi görəcək, həm də problemli kredit, mənzilin qeydiyyatı kimi narahatedici qayğılardan da azad olacaq. Bura ekstremal situasiyalarda - məsələn, zəlzələdə evlərini itirən yüzlərlə ailəyə İlham Əliyev tərəfindən təmənnasız verilən və veriləcək yeni mənzillləri də əlavə etsək, əslində Prezidentin yeni sosial islahatlar paketini yenə də tam əks etdirə bilmirik.

### Sabitlik, inkişaf və islahat…

Dünənki görüşdə ən diqqətçəkən məqamlardan biri xalqın aparılan islahatlara dəstəyini ifadə etməsi və Prezident fəaliyyətini dürüst dəyərləndirməsi idi. Görünən odur ki, xalq sosial rifahını yüksəldən tədbirləri obyektiv təhlil etməklə yanaşı, prosesə yalnız şəxsi güzəran kontekstindən yanaşmır. Onlar prezidentin davamlı  qayğısına nə qədər böyük minnətdarlıq duysalar da, sabitliyə daha böyük önəm verir, ölkənin ictimai, siyasi, hüquqi mənzərəsini tam dərk edir, düzgün nəticələr çıxarırlar.

Vətəndaşların ölkədə tam bərqərar olan ictimai təhlükəsizlik, əmin-amanlıq barədə dünən söylədikləri bir daha təsdiqləyir ki, əhali hadisələrə məntiqlə yanaşır, sabitliyi inkişafın əsas barometri kimi tanıyır. Yəni İlham Əliyevin liderliyininin əsas məziyyətlərini sabitlik, inkişaf və islahat prinsipləri miqyasında qəbul edir. Xalq-iqtidar birliyi isə mövcud kursun davamlılığını təmin edən əsas faktordur.

Dünən xalqın dilindən səslənən alqışlar və dualar Prezidentə olan ümummilli etimadın ən səmimi göstəricisi idi. Bu inamı həm xarici sorğu mərkəzlərinin monitorinqləri, həm də elə seçkilərin nəticələri təsdiqləyir.

İlham Əliyevin “mən sizə güvənirəm, arxalanıram və daim sizinləyəm” fikri isə dünənki görüşün, ümumilikdə isə ötən bir ilin iqtisadi, sosial, siyasi mənzərəsinin sadə icmalı, müfəssəl şərhi, məntiqli qiyməti idi

***İxtiyar HÜSEYNLİ,***
***“Azərbaycan”***

MƏNƏVİYYAT MÖVZUSUNDA

# NİYƏ

## *bədxahlar və şərçilər dərhal birləşir, xeyirxahlar və abırlılar isə tək qalır?*

**Zəlzələ, sel, yanğın hadisələri zamanı dövlət  başçısı  İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı hadisə yerində  görməyə artıq adət  etmişik.**

**Belə görüşlər  təkcə səmimiliyi ilə  deyil, həm də operativ, əsaslı və  hərtərəfli  kömək göstərilməsi  ilə yadda qalır.**

*İlham Əliyev təkcə maliyyə vəsaiti ayırmaqla  kifayətlənmir!  Üstəlik, işlərin deyilən vaxtda, yüksək keyfiyyətlə icrasına nəzarət edir!*

*İlham Əliyevi xalqa  sevdirən ən mühüm məqamlardan biri dar gündə insanları  darda  qoymaması, zərər çəkənlərə yüksək səviyyədə maddi və mənəvi dəstək göstərməsidir!*

**Amma  bir məqamı da unutmayaq: dövlətin ölkə vətəndaşlarına ucdantutma bu tip yardımlar etməsi nə borcudur, nə də belə bir imkanı  var!**

Bax: səh. 4

# Azərbaycan Çinin Cənubi Qafqazdakı ən böyük ticarət tərəfdaşıdır

“Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir.



Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılmışdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər”.

Ardı 5-ci səh.




# “Formula-1”in Azərbaycan nümunəsi yaranır 1001-ci...



Bir neçə gündən sonra “Formula-1” dünyasının nəbzi Bakı ilə döyünəcək.

Aprelin 26-28-də dünyanın bir nömrəli avtomobil yarışının bu mövsüm 4-cü mərhələsi paytaxtımızda keçiriləcək. Bu, eyni zamanda “Formula-1” tarixinin  sayca 1001-ci Qran-prisi olacaq.

Bu günlərdə isə “Formula-1” tarixinin 1000-ci Qran-prisi Çinin Şanxay şəhərində keçirildi. Maraqlı mübarizə şəraitində keçən yürüşdə “Mercedes” komandasının üzvü Luis Hamilton yubiley yarışını qalib olaraq başa vurub. İndi isə diqqətlər artıq Bakıya yönəlib.

Ardı 6-cı səh.

# Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir

## Bu gözəlliyi yaradan isə Prezident İlham Əliyevdir








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şərait barədə dövlət başçısına məlumat verdilər.

Qeyd edildi ki, bu istirahət parkı 1982-ci ildə salınıb. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ötən ilin martından parkda yenidənqurma işlərinə başlanılıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "İDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilib.

Dövlət başçısı və birinci xanım əvvəlcə burada istirahət edən sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova ilə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova:** Salam. Çox sağ olun, minnətdarıq. Allah köməyiniz olsun. Allah Sizi var eləsin. Hər şey üçün Sizə təşəkkür edirik, var olun. Bu abadlıq işlərinə, bu gözəlliklərə görə Sizə minnətdarıq. Allah canınızı sağ eləsin. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu park indi yeni görkəm alıb, tamamilə yenidən qurulub. Bu parkın böyük tarixi var. Əvvəlki görünüşünün şəkilləri orada vurulub və əlbəttə ki, vəziyyət o qədər də ürəkaçan deyildi. İndi isə çox müasir, gözəl park salınıb və vətəndaşların sərəncamına verilib.

**Sübhanə Bayramova:** Çox sağ olun. Nəinki bu parkımız, Azərbaycanımız gözəlləşib. Bütün respublikamızda, doğrudan da, aparılan islahatları görməmək mümkün deyil, o cümlədən Suraxanı rayonunda da. Son illərdə biz bunu görürük, çox təşəkkür edirik. Çox sağ olun, var olun.

**Birinci xanım Mehriban Əliyeva:** Gəlin bu balaca gözəl oğlanlarla şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən qəsəbələrdə. Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir. Bakıda gözəl, müasir parklar salınır, əvvəldən salınmış parklar yenidən bərpa olunur və o cümlədən qəsəbələrdə. Burada indi belə gözəl şərait yaradılıb ki, vətəndaşlar istirahət etsinlər.

**Sübhanə Bayramova:** Qeyd etmək istəyirəm ki, tək parklar yox, ümumiyyətlə təhsil, səhiyyə müəssisələri yenidən qurulur, müasir avadanlıqla təchiz edilir, məhəlləarası yollar təmir olunur, işıqlandırılır, su hövzələri bərpa edilir. Doğrudan da, Sizin sərəncamlarınız əsasında çox böyük islahatlar gedir. Biz Sizə çox təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Rayonda, qəsəbədə təsərrüfat işləri necə gedir?

**Rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov:** Cənab Prezident, işlər çox yaxşı gedir. Bu gün artıq rayonun hər yerində, həmçinin Qaraçuxurda qaz, su, işıq problemləri yoxdur, hamısı gözəldir.

**Prezident İlham Əliyev:** Fasiləsiz?

**Sakinlər:** Bəli, çox gözəldir.

**İlqar Abbasov:** Rayonumuzun əhalisinin 40 faizi fasiləsiz su ilə təmin olunur. Hövsan Sizin həmişə diqqətinizdə olan ərazidir. Qaraçuxurda da əhali 40 faiz təmin olunur.

**Prezident İlham Əliyev:** Qaz 100 faiz?

**İlqar Abbasov:** Qaz da, işıq da 100 faizdir.

**Sakinlər:** Bəli, heç bir problemimiz yoxdur.

**İlqar Abbasov:** Su digər qrafiklə, amma sıx qrafiklə verilir. Heç bir çətinlik çəkilmir. Bir tək bir az kanalizasiya işlərimiz var ki, sağ olun, o da təsdiq etdiyiniz proqramda nəzərdə tutulub.

**Prezident İlham Əliyev:** Əlavə hansı işlər görülməlidir?

**İlqar Abbasov:** Qeyd edək ki, kanalizasiya şəbəkəsinin qurulması və asfalt vurulması rayonun tamamilə abadlaşdırılmasına gətirib çıxarır, heç bir problem qalmır.

**Birinci xanım Mehriban Əliyeva:** Məktəblərdə vəziyyət necədir?

**İlqar Abbasov:** Məktəblər. Rayonumuzdakı 35 məktəbin 30-u əsaslı təmir olunubdur, üçü qəzalı vəziyyətdədir, onlar bu il sökülüb yenidən tikiləcək, artıq proqramda var, ikisi əsaslı təmir olunacaqdır. Uşaq bağçalarımızın, demək olar ki, hamısı təmir olunub, bir neçəsində qaçqın və məcburi köçkünlər yaşadığı üçün onlar köçürüldükdən sonra təmirinə başlanılacaq. Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq yeni uşaq bağçasının tikintisini davam etdiririk, yaxın zamanlarda bu barədə məlumat verəcəyəm. Bundan başqa, Yeni Günəşlidə Sizin tapşırığınızla hazırlanan layihə əsasında gözəl bir parkın, Fatimeyi-Zəhra məscidinin tikintisi davam edir. Onun ətrafında da yeni bir park salınacaqdır. Bu yaxınlarda Qaraçuxurda daha bir parkın təmirinə başlayacağıq. Beləliklə, demək olar ki, rayonumuzun bütün problemləri həll edilmiş olur.

**Sakinlər:** Hər şey üçün çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirik sizi, çox sağ olun.

**Zenfira Həsənova:** Çox sağ olun. Bir də onu demək istəyirəm ki, son üç ayda verdiyiniz fərmanlara görə Sizə çox təşəkkür edirik. Orada pensiyaları, maaşları və ən əsası da kredit problemini nəzərə almısınız. Buna görə də Sizə çox təşəkkür edirik. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Doğrudan da böyük işlərdir. Çünki Azərbaycanda bu məsələ elə səviyyədə həll olunur ki, bunun dünyada bənzəri yoxdur. Çünki bilirsiniz, bir çox ölkələrdə bu problem mövcuddur. Ölkələr və ölkə rəhbərlikləri çalışırdı bu problemi həll etsin, bəzi hallarda qərarlar qəbul edildi, icra olunmadı, bəzi hallarda hələ də müzakirələr gedir. Ancaq biz çox ciddi qərar qəbul etdik və bu, vətəndaşların maraqlarını maksimum nəzərə alan qərar oldu. Təqribən 800 minə yaxın insan bu fərmandan faydalanacaq. O cümlədən minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır. Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. Müvafiq göstəriş verildi. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə ilk növbədə vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına. Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar.

**Sakinlər:** Sağ olun. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Bu il fevralın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və iştirakı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə parkın ərazisində 613, bu il aprelin 6-da isə Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi şərəfinə daha 300 ağac əkilib.

Parkın ərazisində neft buruğunun rəmzi olaraq stela quraşdırılıb, yaşıllıqlar salınıb, 2 min yeni ağac əkilib, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Cavanşir Rəhimovun 1999-cu ildə quraşdırılmış büstü bərpa edilib, büstün ətraf ərazisi yenidən qurulub, "Veteranlar guşəsi" və iaşə obyektləri yenilənib.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Qəhrəman Cavanşir Rəhimovun abidəsini ziyarət etdilər.

* * *

Sonra dövlət başçısı və xanımı parkda istirahət edən digər sakinlərlə görüşüb söhbət etdilər.

**Sakinlər:** Nə gözəl qonaqlarımız gəlib. Xoş gəlmisiniz, necəsiniz?

**Prezident İlham Əliyev:** Salam. Çox sağ olun.

**Milli Qəhrəman Cavanşir Rəhimovun anası Lalə Rəhimova:** Allah Sizə cansağlığı versin. Bu gözəl balamız Milli Qəhrəmandır. Siz həmişə şəhid ailələrinin hörmətini saxlamısınız. Allah Sizi hörmətli eləsin. Biz hər səhər bu parkı ziyarət edirik. Sizin tapşırığınız əsasında yenidən qurulan bu park indi başqa bir aləmdir. Allah Sizi var eləsin, ömrünüz uzun olsun, gözəl Prezidentimiz.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu park, doğrudan da, indi çox gözəl görkəm alıb, müasirləşib, böyük quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Bu parkın əvvəlki vəziyyəti sizə yaxşı bəllidir. Burada çox böyük işlər görülüb və vətəndaşların istirahəti üçün geniş imkanlar yaradılıb.






**Sakinlər:** Sizə təşəkkür edirik. Sizin rəhbərliyinizlə bizim rayonumuz da gözəlləşib. Nəinki bizim rayonumuz, bütün Bakı şəhəri gözəlləşib. Çox sağ olun, minnətdarıq Sizə.

**Şəhid anası Saray Quliyeva:** Zəngilan rayonundan məcburi köçkünəm. Sizin sayənizdə bütün qayğılarımız həll olunub. Sizin diqqət və qayğınız sayəsində övladlarımın hamısı ali təhsil aldı. Bu iki gül bala nəvələrimdir. Biz Sizi dəstəkləyirik, Sizin yolla gedirik, Sizə inanırıq.

**Prezident İlham Əliyev:** Mən də sizə güvənirəm, sizə arxalanıram.

**Lalə Rəhimova:** Şəhid ailələri, Milli Qəhrəman ailələri də Sizinlədirlər.

**Prezident İlham Əliyev:** Mən də sizinləyəm, həmişə sizin yanınızdayam.

**Lalə Rəhimova:** Seçimimiz bəllidir, səmamız açıqdır, günümüz xoşdur, bu gözəl güzəranı bizə yaradırsınız, əmin-amanlıqdır, gecə rahat yatıb rahat dururuq. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Şəhid ailələrinə həmişə böyük diqqət olub, bu gün də bu, belədir.

**Lalə Rəhimova:** Seçkidən sonra da ilk sərəncamınızı bizim üçün imzaladınız.

**Prezident İlham Əliyev:** Bəli, sərəncam imzaladım və bu sərəncam indi icra edilir. Əminəm ki, ilin sonuna qədər tam icra ediləcək və 11 min manat ödəniş veriləcək.

**Lalə Rəhimova:** Verilibdir, mən artıq almışam.

**Prezident İlham Əliyev:** Sizə verilib, bəzilərinə hələ ki, verilməyib, onlara da veriləcək. Ondan sonra müavinətlər də 242 manatdan 300 manata artırıldı. Əlbəttə, Azərbaycanda digər sosial ödənişlər də artırılıb və biz daha da artıracağıq, çünki buna ehtiyac var. Biz minimum əməkhaqqını, minimum pensiyanı artırırıq. Ancaq daha da artırılmalıdır və artırılacaq. Hazırda iqtisadi vəziyyətimiz də, maliyyə vəziyyətimiz də yaxşıdır. Biz əlavə əldə edilmiş bütün gəlirləri vətəndaşların sosial müdafiəsinə yönəldəcəyik.

**Saray Rəhimova:** Sizə tələbələr adından təşəkkürümü bildirirəm. Mənim nəvəm yüksək balla ali məktəbə qəbul olub, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır, onların da təqaüdünü artırmısınız. Bir nənə kimi bütün o uşaqların adından Sizə dərin təşəkkürümü bildirirəm. Elə hesab edin ki, bütün o uşaqlar Sizə təşəkkür edirlər. Mən çox sevindim, çünki təqaüdün tələbə üçün nə demək olduğunu bilirəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Biz həm təqaüdləri artırmışıq, həm də təqaüd alan tələbələrin sayını.

**Saray Rəhimova:** Bu il də əlaçı oldu. Qırmızı attestatla məktəbi qurtarıb, qəbul olub. İnşallah, gələcəkdə dövlətimizə, millətimizə xeyirli övladlar olarlar.

**Prezident İlham Əliyev:** İnşallah.

**Lalə Rəhimova:** Mənim Cavanşirim Qax rayonunda anadan olub. Qax rayonuna getmişdik. O dərəcədə dəyişib ki, Qaxı tanımaq olmur. Sizin sayənizdə çox gözəlləşib.

**Prezident İlham Əliyev:** Bəli, gözəlləşib.

**Lalə Rəhimova:** Allah mənə Cavanşirimin adını daşıyan bir övlad da verdi. İndi Cavanşirim hərbi qulluqdadır, Sizin Heydər balanızla eyni vaxtda əsgərliyə gedib. Əsgərlərimiz Sizin əmrinizi gözləyirlər ki, o əzəli torpaqlarımızı tezliklə azad etsinlər. Şəhidlərimizin qanı tökülən torpaqlarımız azad olsun və hamılıqla yığışıb oralara ziyarətə gedək, Azərbaycanımızın bayrağı Şuşada dalğalansın. Amin! Necə ki, Lələtəpədə bayrağımız yüksəldi, eləcə də bütün Azərbaycan torpaqlarında yüksəlsin bayrağımız. Allah Sizi var eləsin! Allah Sizə nəvələrinizin toyunu görməyi qismət eləsin!

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin Mirzəağa Quliyev:** Mən də Sizi salamlayıram, xoş gəlmisiniz bizim rayonumuza. Bax, yaradılan bu abadlıqlar hamısı Sizin göstərişinizin nəticəsidir. Axşamlar buraya övladlarımızla, nəvələrimizlə, - mənim artıq 5 nəticəm var, - yığışanda Sizə minnətdarlıq edirik. Bütün sahələrdə əldə edilən böyük irəliləyişlər var. Xüsusilə bu sabitlik ki, Sizin hesabınıza, Sizin siyasətiniz sayəsində yaradılıb. Dünyada qarışıqlıq olduğu bir vaxtda Azərbaycanda əmin-amanlıq var. Bunun nəticəsində də bütün sahələrdə nailiyyətlər əldə edilir. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Minayə Həsənova:** Mən neftçi ailəsindənəm, buradakıların 70 faizi neftçi ailələrinin üzvləridir. Mənim 9 nəvəm var, Allah Sizin də nəvələrinizin canını salamat eləsin. Həmişə onları məktəbdən aparanda yapışırlar ki, nənə, gedək bir az parkda gəzək. Mən hesab edirəm ki, bu park balaca Dubaydır. Onu bizə Siz bağışladınız. Bura əsl cənnətdir. Əvvəllər saat 4-5-dən sonra burada gəzmək olmurdu, qorxurduq. Hər tərəfi kol-kos basmışdı. İndi isə səhər saat 5-dək arxayın gəzmək olur.

**Prezident İlham Əliyev:** Mən də çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ölkəmizin uğurlu inkişafı bundan sonra da təmin ediləcək. Siz də qeyd etdiyiniz kimi, Azərbaycan xalqı sabitlik şəraitində yaşayır. Əmin-amanlıq, sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz indi dünyada baş verən hadisələri görürük, izləyirik. Harada ki sabitlik pozulur, orada böyük faciələr baş verir. Azərbaycanda sabitliyin mənbəyi Azərbaycan vətəndaşlarıdır, onların fədakarlığıdır, onların bizə göstərdiyi dəstəkdir. Biz bu dəstəyə arxalanaraq böyük işlər görürük. Bu gün Azərbaycan istənilən sahədə - iqtisadi sahədə, sosial məsələlərin həllində, infrastruktur layihələrinin icrasında liderlik göstərir. Nəinki mərkəzdə, qəsəbələrdə də yollar çəkilir, qazlaşdırma gedir, su xətləri çəkilir, belə gözəl parklar salınır.

**Minayə Həsənova:** Bunu görməyən nankordur, cənab Prezident.

**Lalə Rəhimova:** Mən hər gün xəbərləri izləyirəm, Sizin çıxışlarınıza qulaq asıram. Bir gün nəvəm gəldi yanıma, dedi ki, bizim İlham babamız nə vaxt bizə qonaq gələcək?

**Prezident İlham Əliyev:** Gəlmişəm.

**Saray Rəhimova:** Sizə də, xanımınıza da cansağlığı arzulayıram. Koroğlunun Nigarı, İlhamın Mehribanı, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Saray Rəhimova:** Mehriban xanım, mən bir Azərbaycan qadını kimi, Azərbaycan anası kimi Sizinlə fəxr edirəm. Çünki Siz dünya siyasətində olan qadınların içərisində öz sözünüzü demiş bir insansınız. Allah övladlarınızı, nəvələrinizi saxlasın. Allah hamınıza cansağlığı versin.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun.

**Saray Rəhimova:** Siz gözəl ana, gözəl nənə, Azərbaycanın layiqli xanımısınız. Mən bir ana kimi Sizinlə fəxr edirəm ki, Azərbaycanın belə bir xanımı var. Bizim nəvələrimiz, balalarımız Sizdən örnək götürür, ailələrimiz Sizin ailənizdən örnək götürür. Çox şadıq ki, yolumuz açıq, səmamız aydın, getdiyimiz yol bəlli, inandığımız insan bizə arxa-dayaqdır.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun.

**Minayə Həsənova:** Gözümüz aydın olsun, 10 milyonluq xalq olduq. On milyonuncu Mehriban xanım oldu.

* * *

Əhalisinin sayı 89 min nəfər olan Qaraçuxur Suraxanı rayonunun qədim qəsəbələrindən biridir. Bu parkın müasir səviyyədə yenidən qurulması qəsəbə sakinləri ilə yanaşı, paytaxtımıza gələn qonaqların da asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanlar açır. Ümumilikdə son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızın inkişaf tempinə uyğun olaraq yeni park, istirahət məkanları salınır, mövcudları isə müasir səviyyədə yenidən qurulur. Bütün bu işlər bir daha göstərir ki, paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək istiqamətində həyata keçirilən layihələr ardıcıl xarakter almaqla yüksək keyfiyyətlə icra olunur.

Dövlət başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması sakinlərin və şəhərimizin qonaqlarının rahatlığının təmin edilməsində, onların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Paytaxtda yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması geniş vüsət alıb. Suraxanı rayonunun ərazisində yenidən qurulan bu istirahət məkanı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# İkitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nazir Reza Rəhmani İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlət başçısına çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, nəqliyyat, mədəniyyət və bütün digər istiqamətlərdə, o cümlədən sənaye və ticarət sahələrində uğurla inkişaf etdiyini vurğuladı.

Görüşdə ölkələrimizin birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil zavodunun uğurla fəaliyyət göstərdiyi, Bakıda əczaçılıq zavodunun inşa ediləcəyi, İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin Azərbaycana bu səfəri zamanı isə Hacıqabul Sənaye Məhəlləsində avtobus istehsalı zavodunun təməlinin qoyulacağı qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsinin artdığı vurğulandı, sənaye sahəsində uğurlu layihələrin həyata keçirildiyi bildirildi və bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin və əlavə imkanların olduğu qeyd edildi.

Dövlət başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

## *Valentina MATVİYENKO:* “Mehriban xanım çox maraqlı həmsöhbətdir”



Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko MDB Parlamentlərarası Assambleyası Şurasının aprelin 18-də Sankt-Peterburqda keçirilən iclası çərçivəsində Milli Məclisin Sədri Oqtay Əsədov ilə görüşündə Azərbaycana aprelin əvvəllərində səfərini məmnuniyyətlə xatırlayıb.

AZƏRTAC xəbər verir ki, V.Matviyenko səmimi qəbula və yüksək mükafata - Azərbaycanın “Dostluq” ordeninə layiq görüldüyünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşünün yüksək səviyyədə keçdiyini qeyd edərək deyib: “Mehriban xanım çox maraqlı həmsöhbətdir. Biz onunla görüşümüz zamanı xeyli söhbət etdik. Biz hörmətli Mehriban xanımın Birinci vitse-prezident kimi Rusiyaya səfərində maraqlıyıq”.

Milli Məclisin Sədri Oqtay Əsədov səmimi sözlərə görə təşəkkürünü bildirərək xanım Valentina Matviyenkonun Azərbaycan-Rusiya münasibətlərinin inkişafında rolunu yüksək qiymətləndirib. Görüşdə ikitərəfli əməkdaşlıq, parlamentlər arasında qarşılıqlı fəaliyyətlə bağlı bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov V.Matviyenkoya Azərbaycan parlamentinin 100 illik yubileyinə həsr edilmiş xüsusi medal və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Fəxri medalını təqdim edib.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, MDB Parlamentlərarası Assambleyası Şurası baş katibinin müavini Aydın Cəfərov, Milli Məclisin deputatları Əli Hüseynli, Adil Əliyev, Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov, Federasiya Şurasının üzvü Vladimir Cabarov, MDB PA Şurasının baş katibi Dmitri Kobitski iştirak ediblər.

## Sankt-Peterburqda MDB Parlamentlərarası Assambleyası Şurasının iclası keçirilib

Aprelin 18-də Sankt-Peterburqda MDB Parlamentlərarası Assambleyası (MDB PA) Şurasının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Milli Məclisin Sədri Oqtay Əsədov təmsil edib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun sədrliyi ilə keçən iclasda təşkilati məsələlərə baxılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov Valentina Matviyenkonun yenidən MDB PA Şurasının sədri seçilməsi təklifi ilə çıxış edib. Milli Məclisin Sədri bildirib ki, 2011-ci ildən Şuraya inamla sədrlik edən Valentina Matviyenko dövlətlərarası və beynəlxalq əlaqələr sahəsində böyük təcrübəyə malikdir. Təklif yekdilliklə qəbul olunub.

Sonra iclas iştirakçıları MDB PA-nın aprelin 19-da keçiriləcək 49-cu plenar iclasının gündəliyini müzakirə edib, MDB ölkələrində son vaxtlar keçirilən seçkilərin monitorinqinin nəticələri, 2018-ci ildə təşkilatın fəaliyyətinin yekunları və digər məsələlər barədə məlumatları dinləyiblər.



## Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,45 milyon (iki milyon dörd yüz əlli min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## M.M.Xəlilovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Mirzəcan Mirzəmməd oğlu Xəlilov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## V.Ə.Əliyevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında hərbi sahədə səmərəli fəaliyyətinə görə Vahid Əli oğlu Əliyev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## *Dariqa NAZARBAYEVA:* “Azərbaycanın və Qazaxıstanın parlamentləri arasında möhkəm əlaqələr mövcuddur”



Milli Məclisin Sədri Oqtay Əsədov MDB Parlamentlərarası Assambleyası Şurasının Sankt-Peterburqda keçirilən iclası çərçivəsində aprelin 18-də Qazaxıstan Senatının sədri Dariqa Nazarbayeva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan-Azərbaycan ənənəvi dostluq münasibətlərindən danışan Dariqa Nazarbayeva iki ölkə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən Xəzər hövzəsində, nəqliyyat-logistika, turizm sahələrində əməkdaşlığın uğurla inkişaf etdiyini bildirib. Senatın sədri Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayev ilə Bakıya səfərini, Azərbaycanın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini xatırlayıb. O vurğulayıb ki, Azərbaycan qazaxıstanlıların həvəslə səyahət etdikləri ölkədir. “Xalqlarımız özləri mehriban münasibətlər yaradıblar, bizə isə bu əlaqələri inkişaf etdirmək qalır”, - deyə D.Nazarbayeva bildirib.

Senatın sədri iki ölkənin parlamentləri arasında da möhkəm əlaqələrin mövcud olduğunu vurğulayaraq deyib: “Ümid edirik ki, Azərbaycan ilə əməkdaşlığımız bundan sonra da inkişaf edəcək”.

Milli Məclisin Sədri Oqtay Əsədov Dariqa Nazarbayevanı Qazaxıstan Senatının sədri seçilməsi münasibətilə təbrik edib. O vurğulayıb ki, ölkələrimiz müstəqillik əldə etdikdən sonra ikitərəfli münasibətlər dövlətlərarası əməkdaşlıq səviyyəsinə qalxıb. Azərbaycan və Qazaxıstan xalqlarının liderləri Heydər Əliyev və Nursultan Nazarbayev arasında olan dostluq münasibətləri əlaqələrimizin inkişafında mühüm rol oynayıb. Azərbaycan xalqı Nursultan Nazarbayevin beynəlxalq təşkilatlarda ölkəmizlə bağlı ədalətli mövqeyini hər zaman yüksək qiymətləndirir. Milli Məclisin Sədri iki dost ölkənin parlamentlərinin də əlaqələrinin bundan sonra sürətlə inkişaf edəcəyinə əmin olduğunu qeyd edib.

## *Əli HÜSEYNLİ:* “Azərbaycanın işğal olunmuş ərazilərində terrorçu qruplaşmalar yaradılır”

Aprelin 18-də Sankt-Peterburqda Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası (MDB PA) Şurasının iclası və “Beynəlxalq terrorizmlə mübarizə” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Sankt-Peterburqun Tavriya sarayında keçirilən tədbirlərdə Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti iştirak edir.

Konfransı açan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko terrorizmlə mübarizənin hamılıqla aparılmasının vacibliyini vurğulayaraq bildirib ki, heç kim təkcə özü üçün təhlükəsiz şərait qura bilməz. Bu işdə milli parlamentlər və parlamentlərarası təşkilatların əməkdaşlığının səmərə verə biləcəyini söyləyən Federasiya Şurasının sədri internet vasitəsilə ekstremizmlə mübarizə aparılması məsələsini önə çəkib. O deyib ki, Rusiyada 20 milyona yaxın müsəlman yaşayır və tarixən bu torpaqlarda heç zaman dinlərarası müharibə baş verməyib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli konfransda çıxış edərək bildirib ki, həll olunmamış münaqişələr, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş separatizm beynəlxalq terrorizm üçün münbit zəmindir. O vurğulayıb ki, suveren dövlətlərin ərazilərində müxtəlif şüarlar altında yaradılan “boz ərazilər”də qanunazidd fəaliyyətlər aparılır, terrorçular hazırlanır, qanunsuz silah alveri həyata keçirilir. Azərbaycanın Dağlıq Qarabağ ərazisində terrorçu qruplar hazırlanır və onlardan Azərbaycana qarşı istifadə olunur.

Əli Hüseynli qeyd edib ki, xarici təhdidlərə baxmayaraq, Azərbaycanda təhlükəsizlik təmin edilir. Respublikamız təhlükəsizlik və sabitlik göstəricisinə görə regionun lider ölkəsidir.

Komitə sədri vurğulayıb ki, Milli Məclis də terrorizmlə mübarizə sahəsinə öz töhfəsini verir. Azərbaycanda terrorizmə çağırış, dini radikallıq və ya fanatizmə, həmçinin ölkənin hüdudlarından kənarda hərbi silahlı birləşmələrdə iştiraka görə cinayət məsuliyyəti, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” qanunda isə terrorçuluq fəaliyyətinə görə vətəndaşlıqdan məhrumetmə nəzərdə tutulub. Əli Hüseynli regionda sabitliyin və təhlükəsizliyin qorunmasında Azərbaycan, Rusiya və Türkiyə əməkdaşlıq formatının əhəmiyyətini də diqqətə çatdırıb.

## “Dünya dini liderlərinin II Bakı sammiti” ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası

Aprelin 18-də Nazirlər Kabinetində “Dünya dini liderlərinin II Bakı sammiti” ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Əli Əhmədov Prezident İlham Əliyevin bu il noyabrın 14-15-də “Dünya dini liderlərinin II Bakı sammiti”nin keçirilməsi haqqında sərəncam imzaladığını xatırladıb. Bildirib ki, bu sammitin keçirilməsi məqsədilə yaradılmış Təşkilat Komitəsində dövlət və hökumət qurumlarının, ictimai təşkilatların, dini qurumların rəhbərləri və nümayəndələri təmsil olunurlar.



Baş nazirin müavini deyib ki, Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmiz multikulturalizmin mərkəzi kimi din xadimlərinin iştirakı ilə bir sıra tədbirlərə də evsahibliyi edib. 2010-cu ildə Azərbaycanda “Dünya dini liderlərinin I Bakı sammiti” keçirilib. Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi Prezident İlham Əliyev tərəfindən məqsədəuyğun sayılıb. Bu tədbirin keçirilməsi bir tərəfdən Azərbaycanda dini tolerantlığa töhfə kimi qəbul olunacaq, eyni zamanda müxtəlif ölkələrdən dini liderlər, ayrı-ayrı dini konfessiyaların nümayəndələri bəşəriyyəti narahat edən problemlər ətrafında fikir mübadiləsi apara biləcəklər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sammitin millətlərarası və dinlərarası münasibətlərin davamlı inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib.

Sonra iclasda “Dünya dini liderlərinin II Bakı sammiti”nin keçirilməsi, fəaliyyət proqramının tərtib olunması, qonaqların sayının dəqiqləşdirilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

# İstanbulda Hüseyn Cavidin “İblis” əsəri tamaşaya qoyulub



İstanbulun Harbiyə-Muhsin Ərtuğrul səhnəsində görkəmli Azərbaycan dramaturqu Hüseyn Cavidin “İblis” əsəri tamaşaya qoyulub. Tamaşa İstanbul Şəhər Teatrlarının təşkilati və maddi dəstəyi ilə hazırlanıb.



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, mədəniyyət naziri Əbülfəs Qarayev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver, səfir Xəzər İbrahim, baş konsul Məsim Hacıyev, səfirliyin və konsulluğun əməkdaşları, ziyalılar, media nümayəndələri və digərləri iştirak ediblər.

Tamaşanın quruluşçu rejissoru Azərbaycanın əməkdar incəsənət xadimi, İstanbul Şəhər Teatrlarının direktor müavini Məlahət Abbasova, əsərin mətnini müasir türk dilinə uyğunlaşdıran dramaturq Hilmi Zəfər Şahin, baş məsləhətçisi isə filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevadır.

Baş rolların ifaçıları Türkiyənin tanınmış aktyorları Rıdvan Çələbi, Əmrə Narcı, İskəndər Bağcılar, Şenay Bağ, Nurseli Tırışkan və Çağatay Palabıyıkdır.

Səhnə əsərinin musiqisi xüsusi olaraq bu tamaşa üçün Azərbaycanın xalq artisti, bəstəkar Aygün Səmədzadə tərəfindən bəstələnib.

Bu tamaşada ilk dəfə olaraq “Maping” 3D işıq cihazlarından istifadə edilib. İstanbulun teatr səhnələri üçün ilk olan, kino effekti ilə seçilən bu qurğu tamaşaya xüsusi görkəm verib.

Tamaşaya baxışdan sonra çıxış edən Məlahət Abbasova, Əbülfəs Qarayev və Sona Vəliyeva Hüseyn Cavid kimi dahi bir yazıçını türk, eləcə də dünya tamaşaçısına tanıtmağın vacibliyini qeyd ediblər. Bildirilib ki, “İblis” Cavid dramaturgiyasının şah əsəridir. Əsərin 1918-ci ildə yazılmasına baxmayaraq, mövzu bu gün də aktuallığını qoruyur və təəssüf ki, müasir həyatımızda davam edən qarşıdurmaları özündə əks etdirir.

Çıxışlarda Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri ilə yanaşı, mədəni əlaqələrin də sıx olduğu vurğulanıb. Bu əsərin Türkiyənin ən görkəmli səhnələrindən birində tamaşaya qoyulması yüksək qiymətləndirilib.

# Qusar və Xaçmaz rayonları ərazisində sərhəd mühafizə orqanlarının xidməti-döyüş fəaliyyəti yoxlanılıb



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Rusiya Federasiyası ilə dövlət sərhədində Qusar və Xaçmaz rayonları ərazisində yerləşən sərhəd mühafizə orqanlarının xidməti-döyüş fəaliyyətini yoxlayıb.

Səfər çərçivəsində “Samur” dövlət sərhədindən buraxılış məntəqəsində sərhəd nəzarətinin həyata keçirilməsi üzrə xidməti fəaliyyətə baxış keçirilib. Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində yoxlama prosedurlarının sadələşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə dövlət sərhədindən keçən şəxslərlə söhbətlər aparılıb. Ölkəyə gələn və ölkədən gedən şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin effektivliyinin daha da artırılması və keçid müddətlərinin maksimal azaldılması məsələləri nəzərdən keçirilib.

Bu məqsədlə dövlət sərhədindən buraxılış məntəqəsinin vəzifəli şəxslərinin məruzələri dinlənilib, müqabil ərazidə baş vermiş texniki nasazlıq səbəbindən buraxılış rejimində yaranmış sıxlıq halları ilə əlaqədar görülməli olan tədbirlər haqqında müvafiq göstərişlər verilib.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasovun iştirakı ilə “Samur” dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısında abadlıq işlərinin aparılması məsələləri müzakirə olunub. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının hökumətləri arasında imzalanmış Sazişə uyğun olaraq, “Samur” çayı üzərində yeni körpünün inşası ilə əlaqədar görülən işlərə baxış keçirilib.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Xudat” sərhəd dəstəsinin və Sahil Mühafizəsinin sahil nəzarəti məntəqələrinin ərazisində xidməti fəaliyyətin təşkili, şəxsi heyətin xidməti və məişət şəraiti nəzərdən keçirilib. Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qanunsuz miqrasiya və qaçaqmalçılıq məqsədilə dövlət sərhədinin pozulması cəhdlərinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi üzrə tapşırıqlar verilib.

MƏNƏVİYYAT MÖVZUSUNDA

# NİYƏ

## bədxahlar və şərçilər dərhal birləşir, xeyirxahlar və abırlılar isə tək qalır?

**Sosial şəbəkədə yoxam!**
**Heç olmaq fikrində də deyiləm!**
**Sosial şəbəkənin mövcudluğunu, oradakı söz və fikir azadlığını qəbul edirəm!**
**Yeni “söz meydanı”ndakı müəyyən proseslərdən də xəbərdaram.**
**Həm də bilirəm ki, mənim bu yazımla heç nə dəyişməyəcək!**

Amma...

*Deməsək, münasibət bildirməsək də olmur: kim necə qəbul edər, necə qiymətləndirər, hansı reaksiyanı verər - öz işidir!*

**Dövlətimi və millətimi həmişə yüksəkdə görmək istəyirəm!**

**Mənəvi dəyərlərimizin, mentalitetimizin aşınmasını, əsrlər boyu yaranan insani münasibətlərin korlanmasını qəbul edə bilmirəm!**

Axı biz belə olmalı deyilik və belə deyildik!

❖ ❖ ❖

Elə bil hamı hamıdan “kompramat” yığır!

Hamı hamının paxırını (var, yox) açmağa çalışır!

Kim kimin haqqında mənfi (yalan, ya doğru) eşidirsə, dərhal sosial şəbəkədə, imkan tapanda isə mediada yaymağa çalışır!

**Niyə belə mənfiyə köklənmişik?**

**Niyə pislik bizi maqnit kimi özünə cəlb edir?**

**Niyə dediyimiz yalan, yaydığımız böhtan, yazdığımız şər-şəbədə olmalıdır?**

*Axı dünyanın işığı qaranlığından çoxdur!*

*Axı həyatı da, bizi də yaşadan işıqdır, yaxşılıqdır, bir-birinə əl uzadıb dayaq durmaqdır!*

Niyə dayaqlarımıza qənim kəsilmişik?!

“Pislərdən” əvvəldən imtina etmişik, qoy olsun!

İndi də yaxşıları bəyənmirik?

**Belə çıxır ki, keçmişsiz yaşayacağıq?**

**Heç keçmişsiz də dövlət, xalq olar?!**

❖ ❖ ❖

Son dövrün dəbidir: kimsə məşhurlaşmaq istəyirsə, “böyükləri”, özündən yuxarıdakıları tənqid hədəfinə çevirir, “toxunulmazlar” barədə elə şeylər danışır və yazır ki, hamı ondan danışmağa başlayır!

Jurnalistdirsə, yüksək çinli dövlət məmurlarını, yaxud deputatları hədəfə götürür!

Yazıçı və ya şairdirsə, klassiklərə, yaxud dövrün canlı klassiklərinə girişir!

**Görün dünyanın harasıdır ki, Sabirin bir beytinə dəyməyənlər Sabiri bəyənmirlər!**

**Mirzə Cəlilin bir felyetonunun dəyəri qədər yazı-pozusu olmayanlar, onun yaradıcılığına rişxənd edirlər!**

**Nəsimi fəlsəfəsindən, poeziyasından anlayışları olmayanlar, onun şeirinə “donqli” musiqi “bəstələyib” oxuyurlar.**

Özləri kimiləri də onlara “züy” tutur, “əhsən” deyir!

*Hərdən də hamı səs-səsə verib ittihamçıya çevrilir!*

*Molla Nəsrəddin ədəbi məktəbinin nə olduğunu, satira ilə yumorun fərqini, kinayə, ironiya, sarkazmın hansı ideala xidmət etdiyini bilənlər də, bilməyənlər də qarışırlar bir-birlərinə!*

Sağlıqlarında özlərini nadanlardan, mövhumatçılardan, qoçulardan müdafiə edən sənət fədailərimiz isə indi nə danışa, nə tərpənə, nə də ayağa qalxa bilmədiklərindən kimsəyə cavab vermək iqtidarında deyillər!

Ürəklərində onların tərəfində olanlar, əslində onları müdafiə edəsilər isə susurlar, başlarını “cəngələ salmaqdan” qorxduqlarından cınqırlarını çıxarmırlar!

**Bəli, haqsız meydan sulayır, haqlılar isə ağızlarına su alır!**

**Şərçilər, inkarçılar elektron resurslarını zəbt edir, onlara cavab verməli olanlar isə dinib-danışmır, sanki kimdənsə göstəriş gözləyirlər (kimdən, bilinmir), öz-özlərinə deyinməklə vəzifələrini bitmiş sayırlar!**

Nəticədə ziyalılar meydanı ziyasızlara güzəştə getmiş olurlar!

❖ ❖ ❖

Başqa bir mərəz də geniş yayılıb:

- Özündə nöqsan, çatışmazlıq (hələ yumşaq deyirik) görən yoxdur!
- Hamı uğursuzluğunun səbəbini özgədə, kənarda axtarır!
- Çoxunun özündən xəbəri yoxdur, hansı bilik, qabiliyyət, istedad sahibidir anlamır!

Bir qrup şair və yazıçı ( cavan və qoca) Anarı hədəfə almaq, tənqid etmək, günahlandırmaq və qınamaq üçün daim fürsət gəzir:

- Kitabları çıxmır - günahkar Anardır!
- Məşhurlaşa və sevilə bilmirlər - günahkar Anardır!
- Yazıçılar İttifaqının katibi və ya sədri ola bilmirlər - yenə günahkar Anardır!

Hamısı Anardan təqaüd, ev, çap olunmalarına kömək istəyir - amma acılaya-acılaya!

Biri bir söz dedi - yerdə qalanlar dərhal ona qoşulur!

**Hamı dövlətin ona borclu olduğunu düşünür!**

**Çox az qisim adam dövlət qarşısında borcunu dərk edir!**

*Hamı sözdə müstəqillik tərəfdarıdır!*

*Amma işə gələndə, müstəqil dövlətə sağdan-soldan, daxildən-kənardan hücumlar olanda seyrçi mövqeyi tutur!*

*Ya özünü görməzliyə və bilməzliyə vurur, ya da gözləyir ki, kimsə onu Azərbaycana hücum edənlərə cavab verməyə dəvət etsin!*

❖ ❖ ❖

Şəxsi uğursuzluğunun səbəbini özündə yox, dövlətdə axtaranlar da az deyil!

Belələri qabiliyyət, bacarıq, bilik və peşəkarlıq keyfiyyətlərini artırmaq əvəzinə, deyinməyə, şikayətlənməyə üstünlük verirlər.

Unudurlar ki, insan ilk növbədə özünə güvənməli, öz xoşbəxtliyi uğrunda özü çarpışmalıdır!

Yalnız bu halda nəyəsə nail olmaq mümkündür və bunu həyatın çoxsaylı misalları dönə-dönə təsdiq edib!

Necə deyərlər, səndən hərəkət, məndən bərəkət!

❖ ❖ ❖

Sovet dövründən çoxdan qurtarmışıq, amma sovet psixologiyası hələ də canımızdan çıxmayıb!

Evimiz yoxdur - dövlətdən istəyirik!

Xaricdə müalicə olunmalıyıq - gözümüzü dövlətə dikirik!

Obyektimiz yanıb - dövlətdən kompensasiya umuruq!

**“Dövlət vətəndaşının yanındadır” o demək deyil ki, dövlət vətəndaşının bütün problemlərini onun əvəzinə həll etməli, hətta ona dəyən ziyanı belə ödəməlidir!**

Dövlət iş yerləri (həm də özəl sektor) açar, daimi elektrik enerjisi, su, qaz təchizatını təmin edər, yol çəkər, müalicə müəssisələri, banklar, sığorta təşkilatlarının yaranmasına şərait yaradar, sahibkarlığa dəstək verər, sabitliyi, təhlükəsizliyi təmin edər və s.

**Hamı üçün hər şey edən dövlət kommunizmdə olmalı idi!**

**O da özünü doğrultmadı, bir ideya kimi iflasa uğrayaraq sovet hökuməti ilə birlikdə tarixin arxivinə verildi!**

Bazar iqtisadiyyatı münasibətlərində dövlət kiminsə əvəzinə işləyən deyil!

*Dövlət işləyə bilməyən qocalara, əlillərə, şəhid ailələrinə, qaçqın və məcburi köçkünlərə, habelə bu qəbildən olan digər insanlara arxa durar, kömək edər!*

*Dövlət təbii fəlakətlər nəticəsində ev-eşikdən məhrum olan, yaşamaq imkanını bir anda itirən vətəndaşlara əl uzadar!*

Dövlət qaçqına, məcburi köçkünə yiyə durar!

*Müstəqil Azərbaycanda bu tip kömək və yardımların klassik nümunələrinin dəfələrlə şahidi olmuşuq!*

**Zəlzələ, sel, yanğın hadisələri zamanı dövlət başçısı İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı hadisə yerində görməyə artıq adət etmişik.**

**Belə görüşlər təkcə səmimiliyi ilə deyil, həm də operativ, əsaslı və hərtərəfli kömək göstərilməsi ilə yadda qalır.**

*İlham Əliyev təkcə maliyyə vəsaiti ayırmaqla kifayətlənmir! Üstəlik, işlərin deyilən vaxtda, yüksək keyfiyyətlə icrasına nəzarət edir!*

*İlham Əliyevi xalqa sevdirən ən mühüm məqamlardan biri dar gündə insanları darda qoymaması, zərər çəkənlərə yüksək səviyyədə maddi və mənəvi dəstək göstərməsidir!*

**Amma bir məqamı da unutmayaq: dövlətin ölkə vətəndaşlarına ucdantutma bu tip yardımlar etməsi nə borcudur, nə də belə bir imkanı var!**

❖ ❖ ❖

İnternet gözəl şeydir!

Amma onun sosial şəbəkə variantı hələ kaldır, yetişmə mərhələsindədir.

Bəlkə də heç yetişməyəcək, kim bilir!

Çünki söyüş və təhqirin baş alıb getdiyi, insan şəxsiyyətinə və ləyaqətinə hörmət qoyulmadığı, həqiqətlə yalanın sərhədlərinin bilinmədiyi, qərəzin, özünügöstərmənin obyektivlikdən yüksəkdə dayandığı məkanda “yetişmə” olsa belə, yəqin ki, düz istiqamətdə getməz!

Heç zaman güman etməzdim ki, söz azadlığı belə bir qısa vaxtda söz özbaşınalığına, söz azğınlığına gətirib çıxara!

**Başqasına hörmətlə yanaşmayan, əslində, özünə də hörmət qoymur!**

**Yəqin ki, kiməsə söyüş söyən, təhqiramiz ifadələr işlədən şəxs əvvəlcədən cavabında nə eşidəcəyini də bilməmiş deyil!**

Lap bir-birimizlə kəskin mübahisə edək!

Lap mövqelərimizi ölənəcən dəyişməyək və barışmayaq!

Lap eyni fikirdə olmadığımıza görə bir-birimizdən zəhləmiz getsin!

*Məgər normal danışmaq, mübahisə etmək, fakt göstərmək, arqument gətirmək olmazmı?*

*Axı söyəndə, təhqir edəndə nə dəyişir!*

*Əslində hər şey olduğu kimi qalır: hərə öz mövqeyində, öz fikrində, öz inandığı yerdə qərar tutur!*

Dəyişən söyənə olan münasibətdir!

Söyən əvvəlcə öz mədəniyyətini və mənəviyyatını göstərir.

İkincisi, haqsız olduğunu!

Çünki doğru olduğunu yalnız sübutlarla, faktlarla, dəmir məntiqinlə təsdiq edə bilərsən!

**Söyüş zəiflərin, gücsüzlərin, məğlubiyyətini irəlicədən görənlərin silahıdır!**

❖ ❖ ❖

Maraqlı bir misal var: Allah dəvəyə qanad verməsin!

Bu gün hamının sosial şəbəkədə söz demək, “hökm vermək”, “qərar çıxarmaq” səlahiyyəti var!

Belə “səlahiyyət sahiblərinin” doxsan faizindən çoxu ən sərt və qəddar hökmlər verir: “asılsın”, “kəsilsin”!

*Nə “rəhm” edən var, nə “müqəssirin” halına yanan!*

*Baş verən hadisənin doğru-yalanlığını, ədalətin harada olduğunu dəqiqləşdirmədən, “günahkarların” şəxsiyyətini, sosial vəziyyətini öyrənib dəyərləndirmədən dərhal “ölüm hökmü” çıxarırlar!*

**Görəsən, bələlərinin vəzifəsi, əməlli-başlı səlahiyyəti olsa, nə edərlər?!**

**Niyə bu qədər zalımıq, qəddarıq, amansızıq?**

**Heç olmazsa dövlət başçısından mərhəmətlilik, humanistlik, bağışlamaq qabiliyyətini öyrənək!**

Kimləri əvf etmədi, kimləri həbsxanadan buraxmadı!

**Əgər ölkənin ən böyük səlahiyyət sahibi ədalətli və mərhəmətlidirsə, biz səlahiyyətsizlər niyə zalımıq?**

**Axı dinimiz də həmişə bağışlamağı, mərhəmətli və ədalətli olmağı təşviq edir!**

**Onda belə daşürəkliyi kimdən öyrənmişik?!**

❖ ❖ ❖

“Yuxarıları” və “yuxarıdakıları” tənqid hədəfinə çevirməklə “qəhrəman” imici qazanmaq arzusunda olanların sayı daim artır!

**Sanki kiməsə mənəvi yara vuranda rahatlanırıq, zövq alırıq, necə deyərlər, ürəyimiz sakitləşir.**

NƏ VAXTADƏK:

- insanların yaxşı cəhətlərini qoyub, “pisini” danışacağıq;
- başımız çıxmayan məsələlər barədə “ekspertlik” edəcəyik;
- “harada bişdiyindən” xəbərimiz olmadığı hadisələr haqqında “rəy” söyləyərək, baş verənləri “qiymətləndirəcəyik” ;
- “təqsiri sübut olunmayanlar” (haqqında deyilənin hələ həqiqət, yaxud yalan olduğu bilinməyənlər) barəsində “ölüm hökmü” çıxaracağıq;
- özümüzü ən “ədalətli hakim” sayaraq başqalarının ağıllı fikirlərini və tövsiyələrini “mənasız mövqe” kimi qəbul edəcəyik!

*İçimizdəki bu hikkə haradan yaranıb?*

*Daxilimizdəki bu qədər nifrət nədən yığılıb?*

*“Mənəm-mənəmlik” hissi bizdə necə formalaşıb?*

**Niyə bu qədər inkarçıyıq?!**

**Niyə yaxşılıqları, yaxşı cəhətləri görmək istəmirik?!**

**Niyə hər şeydə və hər yerdə qara axtarırıq?!**

Axı həyat yaxşılıqların üzərində qərar tutur və yaşayır!

Axı yaxşını görməmək, qiymətləndirməmək, əslində yamana, pisə, kinküdurətə dəstək vermək deməkdir!

Özümüz bir qələt qarışdıranda istəyirik ki, bizi bağışlasınlar, cəzalandırmasınlar!

“Birinci dəfədir”, “bilməmişəm”, “xəbərim olmayıb” deyə bəraət diləyirik!

Vay o gündən ki, başqası ağzından yanlış ifadə çıxara və ya addımını əyri ata!

Allah, sən saxla! Hamı dönür əlibaltalı, qırmızı geyimli cəllada!

Sözlə, söyüşlə o binəvanın axırına çıxmaq istəyirlər!

Bəzən çıxırlar da!

**Niyə, nə xəbərdir!**

❖ ❖ ❖

Sosial şəbəkə qəhrəmanları sanki (həm də görünür təsadüfən yox) qəsdən “hörmətdənsalma kampaniyaları” aparırlar.

Özü də sistemli, ardıcıl şəkildə:

- Qanun keşikçiləri sayılan polislər (ən çox YPX) uzun müddət müxtəlif formada hallandırıldı;
- Məmurlar yeri gəldi-gəlmədi korrupsiyada ittiham edilərək damğalandı;
- Millət vəkilləri “gizli biznesmenlər”, xaricdə və ölkə daxilində “mal-mülk sahibləri” kimi təqdim edildi və edilirlər;
- İndi keçiblər məktəbə və müəllimlərə, bu qurumu şagirdlərin, valideynlərin və cəmiyyətin gözündən-nəzərindən salmaq üçün davamlı kampaniya aparılır!

*Növbədə kimlərdir?*

*Hələ çoxmu sakit dayanıb kənardan baxacağıq?*

*Bütün hörmətliləri hörmətsiz edilmiş cəmiyyətin özü də hörmətsiz və etibarsız vəziyyətə düşməyəcəkmi?*

**Artıq bu barədə düşünmək zamanıdır!**

**Bəxtiyar SADIQOV**

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq kəndində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Daxili İşlər Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkə istifadəçilərinə müraciət edib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə bildirilir: “Son günlər Daxili İşlər Nazirliyinin adından və loqotipindən istifadə etməklə sosial şəbəkələrdə icazəsiz və saxta səhifə, kanal, profillər yaradan, işlədən şəxslərin sayı artmaqdadır. Belə profillərin yaradılması, işlədilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır.

Həmin səhifə və profillərdə polisin fəaliyyətinə dair təhrif olunmuş yanlış məlumatlar yerləşdirilir, vətəndaşlar tərəfindən ünvanlanmış suallara səhv cavablar yazılır.

Ona görə də sosial şəbəkə izləyicilərinə saxta səhifə və profillərdən istifadə etməməyi tövsiyə edirik.

Məlumat üçün bir daha xatırlatmaq yerinə düşərdi ki, ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin daha da yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə yaradılmış rəsmi səhifələri artıq iki ildən çoxdur fəaliyyət göstərir.

Vətəndaşlar DİN-in rəsmi www.mia.gov.az saytından “Facebook”, “Instagram”, “Twitter” və “YouTube” hesablarına keçid işarə düymələrindən istifadə, yaxud aşağıdakı linklər vasitəsilə həmin səhifələri bəyənmə və abunə olmaqla məlumatları əldə edə bilərlər:

“Facebook” - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi keçid linki (https://www.facebook.com/mia.gov.az/)

“Instagram” - azerbaycan.din keçid linki - (https://www.instagram.com/azerbaycan.din/)

“YouTube” - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi keçid linki - (https://www.youtube.com/channel/UCnOFIn-vwFvkLMCMGyg2yw?view_as=subscriber)

“Twitter” - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (https://twitter.com/MIAAzerbaiyan)”.

# Dövlət qulluqçularının peşə bayramı gününün qeyd edilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Dövlət qulluqçularının peşə bayramı gününün qeyd edilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənəddə Dövlət İdarəçilik Akademiyasında dövlət qulluğunun aktual problemlərinə dair elmi-praktik konfransın keçirilməsi, Dövlət Statistika Komitəsi tərəfindən müvafiq statistik məlumatların dərc edilməsi, yerli icra hakimiyyətlərində tədbirlərin təşkil olunması, dövlət qulluğu sisteminin mahiyyəti və əhəmiyyəti haqqında ölkə ictimaiyyətinin məlumatlandırılması, dövlət orqanlarında uzun illər səmərəli fəaliyyət göstərən dövlət qulluqçularının orden, medal və fəxri adlarla təltif edilməsi, dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi barədə təkliflərin hazırlanması kimi məsələlər öz əksini tapıb.

# "Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr" mövzusunda "dəyirmi masa"

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunda "Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"nı institutun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə açaraq akademik Ramiz Mehdiyevin son illərdə Azərbaycan tarixinin aktual dövrlərinə - Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Azərbaycan Xalq Cümhuriyyəti-İran diplomatik münasibətləri, Dağlıq Qarabağ və digər mövzulara həsr olunmuş kitablarının çapdan çıxdığını söyləyib. Qeyd edib ki, akademikin sözügedən əsərlərində Azərbaycan tarixinin mahiyyəti araşdırılıb, onun məna və məzmunu üzə çıxarılıb, həmçinin elmi dövriyyəyə nadir tarixi sənədlər, yeni mənbələr daxil edilib.




"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında müəllifin xanlıqların taleyini təfərrüatı ilə təsvir etdiyini deyən professor İlham Məmmədzadə bildirib ki, əsərdə, həmçinin ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazilərinə köçürülməsi erməni tarixçilərin əsərlərindən faktlar gətirilməklə oxucuya təqdim olunur. Kitabda tədqiqatçılara tövsiyələr verilir, tarixi araşdırmaların necə aparılmalı olduğu, tarixi material və mənbələrin hansı rol oynadığı, tarixi geosiyasi münasibətləri dərk etməyin nə qədər vacib olduğu izah edilir. Əsərin filosoflar üçün qiymətli mənbə olduğunu deyən professor İlham Məmmədzadə fəlsəfi ümumiləşdirmə və yanaşmalarla Azərbaycan tarixinin müxtəlif dövrlərini anlamaq və onun mahiyyətini aşkar etməyin mümkün ola biləcəyini vurğulayıb.

Daha sonra institutun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətlinin "Azərbaycan tarixinin fəlsəfi dərki və müasir dövr" və fəlsəfə üzrə elmlər doktoru, professor Rəna Mirzəzadənin "Xanlıqlar institutunun siyasi-ideoloji xəritəsi yazılan sənədlərdə" mövzularında məruzələri dinlənilib.

Tədbirdə, həmçinin Milli Məclisin deputatı Qənirə Paşayeva, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Fəlsəfə İnstitutunun ümumi işlər üzrə direktor müavini Qabil Camalov, fəlsəfə elmləri doktorları - Füzuli Qurbanov, Əlikram Tağıyev, Arif Bünyadov və fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli çıxış edərək xanlıqlar dövrünün Azərbaycan tarixində mühüm yer tutduğunu söyləyib, əsərdə sənədlərdən və tarixi məxəzlərdən istifadə olunmasını yüksək qiymətləndiriblər. Bundan əlavə, SSRİ dövründə Azərbaycan tarixinin təhrif edildiyi bildirilib, nəşrin tarixi həqiqətləri üzə çıxarması, cəmiyyətin, xüsusilə də gənclərin maarifləndirilməsi baxımından önəmi qeyd edilib.

Vurğulanıb ki, akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin təqdim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına təkan verəcək.

# *Marek QROBARÇİK:* "Polşa Azərbaycanla gəmiqayırma sahəsində əməkdaşlıq etməyə maraqlıdır"

Polşa Respublikasına rəsmi səfəri çərçivəsində nazir Elmar Məmmədyarov bu ölkənin dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri Marek Qrobarçik ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Marek Qrobarçik Polşa limanlarının fəaliyyəti haqqında ətraflı məlumat verərək iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə böyük potensialın mövcudluğunu vurğulayıb. Nazir Elmar Məmmədyarov Azərbaycanla Polşa arasında limanlararası əməkdaşlığın vacibliyini qeyd edərək Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və limanın tikintisinin hər üç mərhələsi haqqında dolğun məlumatı qarşı tərəfin diqqətinə çatdırıb. Həmçinin nazir Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı ilə Qdansk Dəniz Limanı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun artıq razılaşdırıldığını qeyd edib.

Daha sonra M.Qrobarçik Azərbaycanla gəmiqayırma sahəsində əməkdaşlıq etməyə maraqlı olduğunu qeyd edərək iki ölkə arasında texnologiya sahəsində təcrübə mübadiləsinin həyata keçirilməsinin vacibliyini vurğulayıb. O, ölkəsinin dəniz məhsullarının istehsalı ilə bağlı Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

Görüşdə iki ölkə arasında tranzit və intermodal daşıma məsələləri haqqında müzakirələr aparılıb.

Nazir Elmar Məmmədyarov Marek Qrobarçiki Azərbaycana səfərə dəvət edib.

# Azərbaycan Çinin Cənubi Qafqazdakı ən böyük ticarət tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*

Bu fikirlər Prezident İlham Əliyevin aprelin 17-də Çinin Sinxua agentliyində dərc olunan müsahibəsində yer alıb. İki ölkə arasında siyasi, iqtisadi münasibətlərin durumuna, müxtəlif sahələrdəki əlaqələrə toxunan dövlət başçısı son illər ərzində "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əldə edilən uğurları dəyərləndirib. Həmçinin qeyd edib ki, humanitar sahədə əməkdaşlığın yaxşılaşdırılması münasibətlərin inkişafında vacib rol oynaya bilər. Təhsil sahəsində də daha fəal əməkdaşlığa ehtiyac var.



Ölkə rəhbərinin dediyi kimi, Azərbaycan Çinin təşəbbüsünə qoşularaq Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bir sıra Çin şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir və əsas məqsəd daha çox Çin şirkətlərini Azərbaycanda investor, ticarətçi və podratçı qismində görməkdir. Çünki ölkəmizdə çox münbit sərmayə mühiti mövcuddur. Bu da sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərinin diqqətini çəkə bilər.

İki ölkə arasındakı 1,3 milyard dollarlıq ticarət dövriyyəsi Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticari əlaqələrinin 43 faizini təşkil edir. Azərbaycan tərəfindən bu ölkənin Honkonq, Quancou, Urumçi, Şanxay və Pekin şəhərlərinə ixrac missiyaları da baş tutub. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən idxala dəstək siyasəti Azərbaycanın yüksək keyfiyyətli məhsullarının bu ölkənin bazarında təklif olunması üçün əlverişli şərait yaradır.

Ölkəmizdə 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb. Ötən dövr ərzində Azərbaycan tərəfindən Çinə 1,7 milyard dollar, Çindən isə Azərbaycana 800 milyon dollardan artıq investisiya yatırılıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon dollar dəyərində layihələrdə Çin şirkətləri iştirak edib.

Prezident 4 il öncə, 2015-ci ildə bu ölkəyə səfərini xatırlayaraq Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumunun faydasından söz açıb. Qeyd edib ki, Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir və iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var.

Dövlət başçısı müsahibəsində son illər Azərbaycanın nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi, daha da gücləndirilməsi istiqamətində atılan addımlara toxunub. Bildirib ki, Azərbaycan dəmir yolu infrastrukturunun müasirləşdirilməsinə sərmayə yatırır. Ötən ilin may ayında Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq limanın istifadəyə verilməsi, Çindən Avropaya və geriyə yükdaşımalar üçün ən qısa nəqliyyat marşrutu olan, Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmiryol xətti bunun əyani sübutudur. Təkcə ötən il Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 19 qatar yük daşınıb: "Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

İlham Əliyev vurğulayıb ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu layihələr geosiyasi vəziyyətə təsir edir, sabitliyə və proqnozlaşdırma aparmağa töhfə verir və qarşılıqlı asılılıq yaradır. Ancaq qonşu dövlətlərlə münasibətlər olmadan tranzit ölkəyə çevrilmək qeyri-mümkündür. Yəni bu, ölkələrdən ibarət zəncirdir və Azərbaycan Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərindədir. Bununla da qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qurur.

Dövlət başçısı hesab edir ki, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir: "Ümid edirəm ki, "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu bu istiqamətdə növbəti addım olacaq və məhsuldar müzakirələrin aparılması üçün yaxşı imkan yaradacaq".

Onu da əlavə edək ki, Çinin "Bir kəmər və bir yol" təşəbbüsü çərçivəsində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və s. sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır. Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsi səmərəli olmaqla yanaşı, iki ölkə arasında əməkdaşlığa önəmli töhfə verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Naxçıvan Hərbi Qarnizonunun Təlim-Tədris Mərkəzində komanda-qərargah təlimləri keçirilir

Aprelin 18-də Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının uzlaşdırılmış plan üzrə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təlimi izləyib.



Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport verib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün alınmış xidməti avtomobillərə baxış olub. Bildirilib ki, hərbi hissələr müasir döyüş texnikaları ilə yanaşı, həm də xidməti avtomobillərlə təmin olunur. Yeni alınmış 10 ədəd "NİVA" markalı xidməti avtomobil hərbi hissələrin komandir və rəis heyətinin istifadəsinə veriləcək.

Sonra təlim başlayıb.

Məlumat verilib ki, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının hücum əməliyyatlarının qarşılıqlı əlaqəsini koordinasiya etmək, döyüşə və səfərbərliyə hazırolma səviyyəsini artırmaq məqsədi ilə yaradılmış Təlim-Tədris Mərkəzinin Simulyasiya Mərkəzi 81 kompüterdən, ümumilikdə isə 20 otaqdan və təlim nəticələrinin təhlil edilməsi üçün 90 yerlik zaldan ibarətdir. Simulyasiya Mərkəzinin əsas üstünlüyü burada birtərəfli təlimlərlə yanaşı, ikitərəfli üçpilləli təlimlərin də keçirilməsi, bölük, tabor və briqada səviyyəsində real vaxt rejimində fəaliyyət göstərməsidir. Kompüter dəstəkli komanda-qərargah təlimlərinin keçirilməsinin əsas məqsədi komandir və qərargah zabitlərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də onların əməliyyatın planlaşdırılması və vəziyyətin qiymətləndirilməsi üzrə bacarıqlarının inkişaf etdirilməsindən ibarətdir.

"Sakarya" və "Qasırğa" yaylım atəşli reaktiv sistemlərin simulyasiya sinfi avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz olunub. Tədris sinfi 6 döyüş maşınından, batareya komandirinin idarəetmə maşınından, meteomaşını simulyasiya edən kompüterdən, məşğələ rəhbərinin iş yerinin kompüterindən və şəbəkə mərkəzindən ibarətdir. Burada dvizion və batareya tərkibində atəş hazırlıqlarının hazırlanması və döyüş maşınlarının avtomatik olaraq hədəfə tuşlanması şəxsi heyətə öyrədilir.

Döyüş və piyada döyüş maşınları "BMP2" və "BMP3", "T72" və "T90" trenajorlarda idarə edilib və müxtəlif döyüş tapşırıqları yerinə yetirilib. Tank əleyhinə bölmələr üçün nəzərdə tutulan "SPİKE-LR"və "SPİKE-ER" daxili otaq trenajorları operator və təlimatçı stansiyaları olmaqla 2 hissədən ibarətdir. Bu da məşğələ zamanı təlimatçıya bütün atəş ardıcıllığını izləməyə, atışdan əvvəl və sonra ərazi görüntüsünü müşahidə etməyə imkan verir. Həmçinin kompüterdə döyüş sahəsinin simulyasiya olunmuş görüntüsü əks olunur.

Qeyd olunub ki, tank əleyhinə məşq qurğuları döyüş sahəsinin simuliyasiya olunmuş görüntüsündə hərəkətsiz və hərəkət edən hədəflərə döyüş raketlərindən istifadə etmədən atəş tapşırıqlarının yerinə yetirilməsini təmin edir. Eyni zamanda, atəş tapşırıqları yerinə yetirilərkən hədəfi izləməyə imkan yaradır, fərdi və manqa tərkibində tapşırığın yerinə yetirilməsini qiymətləndirir. Kompüterli artilleriya sinfində divizion və batareya tərkibində sutkanın işıqlı və qaranlıq vaxtında döyüş sursatı sərf etmədən atəş tapşırıqları icra edilib. Artilleriyanın taktika sinfində isə zabit heyəti ilə sinif şəraitində taktiki məşğələlər keçirilib, taktiki qrup çalışmaları yerinə yetirilib, taktiki və komanda-qərargah təlimlərinin keçirilməsindən əvvəl zabitlərin hazırlanması və taktiki hazırlıqdan məqbulların qəbul edilməsi prosesi həyata keçirilib.

Kompüterlə və digər avadanlıqlarla təmin olunmuş "Qvozdika" simulyasiya sinfində avtomatlaşdırılmış idarəetmə sistemi ilə divizion və batareya tərkibində hədəf göstəriciləri müəyyən edilib. Tibbi hazırlıq, avtomobil texnikası, zirehli texnikaların idarə edilməsi, raket artilleriya silahları, qarovul, kəşfiyyat, hərbi topoqrafiya, kütləvi qırğın silahlarından mühafizə, rabitə, mühəndis və hava hücumundan müdafiə siniflərində də müvafiq sahələr üzrə məşğələlər keçirilib. Xüsusi proqramla təchiz edilmiş əsas və arxa komanda məntəqələri, artilleriya qruplaşması, təminedici bölmələr, bölük komandirləri və tabor qərargahları siniflərində keçirilən ikitərəfli təlimlərdə də məqsədə nail olunub. Naxçıvan Qarnizonu Qoşunlarının uzlaşdırılmış kompüter dəstəkli komanda-qərargah təliminin nəticələri hakimlər qrupu tərəfindən dəyərləndirilib, toplanan məlumatlar və əldə olunmuş nəticələr təhlil edilib.

Qarnizonda yerləşən birləşmə və hissələrin xidməti sənədləri və tədris üçün əyani vəsaitlər hərbi mətbəədə hazırlanır. Bugünə qədər birləşmə və hissələr üçün 10 mindən artıq xidməti istifadə üçün kitab və jurnal hazırlanıb. Təlim-Tədris Mərkəzinin zəngin kitabxanası vardır. Bildirilib ki, hazırda kitabxanada 18 min müxtəlif ədəbiyyat şəxsi heyətin istifadəsinə verilib.

Ali Məclisin Sədri nəzəri dərslərin real ərazi maketləri üzərində keçirilməsi, uzlaşmış təlim və məşğələlərin nəticələrinin qarşılıqlı təhlil və müzakirə olunması barədə tapşırıqlar verib.

Sonra "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə görülən işlərin nəticələrinə həsr olunmuş müşavirə keçirilib.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"na əsasən birinci tədris rübündə əsas səylər motoatıcı, tank, artilleriya, xüsusi təyinatlı və hava hücumundan müdafiə bölmələrinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, eləcə də hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə yönəldilib. Təlim və məşğələlərdə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin hərbi qulluqçuları ilə yanaşı, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə alayının hərbi qulluqçuları da iştirak ediblər. 2019-cu ilin birinci rübündə 8-i ərazidə, 8-i isə kompüter dəstəkli olmaqla 16 briqada komanda-qərargah təlimi, 3 komanda-qərargah səfərbərlik təlimi, 2 qərargah məşqi, idarəetmə məntəqələrinin açılması üzrə komanda-qərargah məşqi, təyyarə və vertolyotların 50 saatdan artıq təlim-məşq və xüsusi tapşırıq uçuşu keçirilib.

Qeyd olunub ki, tədris rübündə müxtəlif ixtisaslar üzrə 1955 müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlanıb. Hazırda "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu"nda 309 kursant, "Gizir hazırlığı kursu"nda isə 82 kursant təhsil alır. Rüb ərzində qarnizonun birləşmə, hissə və bölmələrinin cəlb edilməsi ilə müxtəlif ixtisaslar üzrə 20 yarış, 12 müsabiqə keçirilib. Silah və texnikaların təmiri, texniki qulluq, şəxsi heyətin tibbi müayinəsi və qidalanması da diqqətdə saxlanılıb. Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən dəstəyə görə Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının şəxsi heyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: "Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə Naxçıvanın müdafiə potensialının və hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranmışdır. Ötən il Əlahiddə Ümumqoşun Ordu tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatı bunu bir daha təsdiq etdi. Ölkəmizin müharibə, muxtar respublikanın isə həm də blokada şəraitində olması və düşmən ölkə ilə sərhəddə yerləşməsi Naxçıvanda digər qoşun növlərinin - "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının yaradılmasını da zərurətə çevirmişdir. Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının bir qarnizonda birləşməsi isə qarşılıqlı döyüş fəaliyyətinin təşkilində mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"nın təsdiq olunması, keçirilən birgə təlimlər və qarşılıqlı fəaliyyət məmnunluq doğurur".

Ali Məclisin Sədri deyib: "Naxçıvan Hərbi Qarnizonu Qoşunları üçün müasir Təlim-Tədris Mərkəzinin yaradılması, təlim və məşğələlərin uğurla keçirilməsi muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamıdır: Ötən il Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təliminin, bu gün isə kompüter dəstəkli komanda-qərargah təliminin keçirilməsi birgə fəaliyyətin nəticəsidir. Bundan sonra da Uzlaşma Planına uyğun olaraq birgə təlimlər keçirilməli, qarşılıqlı fəaliyyət təmin olunmalıdır".

Qeyd olunub ki, muxtar respublikadakı ordu, birləşmə və hissələr hər il müasir silah və texnikalarla təmin olunur. Bu da mütəxəssis hazırlığını zəruri edir. Ona görə də muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər sırasında kadr hazırlığına xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Orduda zabit, gizir və müddətdən artıq hərbi qulluqçular hazırlanır. Nəticədə mürəkkəb reaktiv qurğuları və digər döyüş texnikalarını idarə edən şəxsi heyət formalaşıb. Təlim-Tədris Mərkəzində yaradılan şərait bu sahədə işlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı" üzrə tapşırıqların uğurla yerinə yetirildiyinə görə Naxçıvan Hərbi Qarnizonu qoşunlarının şəxsi heyətinə təşəkkür edib.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinin Uzlaşma Planı"nın xidmətin uğurlu həyata keçirilməsinə və birgə fəaliyyətin təşkilinə mühüm töhfə verdiyini bildirib, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə şəxsi heyət adından minnətdarlıq edib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada "Qanın milliyyəti yoxdur" adlı xeyriyyə aksiyası keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aprelin 18-də Moskvada "Qanın milliyyəti yoxdur" adlı xeyriyyə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) təşkilatçılığı və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin dəstəyi ilə keçirilən aksiya İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının kliniki transfuziologiya və hematologiya kafedrasında baş tutub.

Bu il də aksiyaya azərbaycanlı tələbələrlə yanaşı, Rusiya paytaxtında təhsil alan digər millətlərdən olan tələbələr qoşulub.

Rusiya Azərbaycanlı Gənclər Birliyinin İdarə Heyətinin üzvü, tibb elmləri namizədi Samir Əliyev jurnalistlərə bildirib ki, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə bu aksiya artıq 10-cu ildir ki, keçirilir. Samir Əliyev qeyd edib ki, xeyriyyə aksiyasının donorları qan verərkən həm öz sağlamlıqları barədə məlumat əldə edir, həm də qana ehtiyacı olan insanlara yardım göstərirlər.

Birinci Moskva Dövlət Tibb Universitetinin Qan Mərkəzinin rəhbəri, tibb elmləri doktoru, professor Əliheydər Rəhimov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiyanın artıq ənənə halı aldığını vurğulayaraq deyib: "İl ərzində RAGB tərəfindən bir neçə dəfə qanvermə aksiyaları təşkil olunur. Bu xeyriyyəçilik aksiyasının təşkilinə görə, Qan Mərkəzi kollektivi adından Leyla Əliyevaya təşəkkürümü bildirmək istəyirəm".

"Qanın milliyyəti yoxdur" aksiyası təkcə Moskvada deyil, Rusiyanın başqa regionlarında da təşkil edilir. Hər il bu aksiyada minlərlə gənc iştirak edir.

# Sözünə sadiq PREZİDENT

## Ötən bir il ərzində dövlətin yürütdüyü siyasət mədəniyyət sahəsinin də inkişafına böyük dəstək olub

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Mədəniyyət Nazirliyinə 1 milyon 200 min manat, o cümlədən Azərbaycan Dövlət "Yuğ" Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şəki Dövlət Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Qazax Dövlət Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax rayonu Gürcü Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı və Salyan Dövlət Kukla Teatrının hər birinə 100 min manat ayrılmasını nəzərdə tutan "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" 17 aprel 2019-cu il tarixli Sərəncam imzalayıb.

Prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasını təmin etmək üçün Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, bəşəri dəyərlərin təbliği, maddi-texniki bazalarının modernləşdirilməsi, informasiya və maliyyə resurslarından səmərəli istifadə, günün tələblərinə uyğun repertuarın formalaşması istiqamətində məqsədyönlü layihələr tərtib edilib.

Azərbaycan teatrlarının inkişafı ilbəil genişlənən beynəlxalq təcrübə mübadiləsində də özünü göstərir və müsbət nəticələr verir. Teatrların yeni tamaşaları, qastrol səfərləri, sözsüz ki, özünün qaynar həyatına rəng qatır. Bu sahənin inkişafı istiqamətində mühüm addım olan "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasının uğurla həyata keçirilməsi zəngin ənənələrə malik səhnə sənətimizin yeni mərhələyə qədəm qoymasına zəmin yaradıb. Bu gün Azərbaycan teatrının sorağı dünyanın müxtəlif səhnələrindən gəlir, ölkəmiz bu sahədə diqqətəlayiq beynəlxalq təşəbbüslərin müəllifi, mötəbər tədbirlərin evsahibi olur.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında V.Şekspirin "On ikinci gecə və yaxud hər nə istəsəniz", A.Tolstoyun "Buratino", Azərbaycan Dövlət Akademik Musiqili Teatrında A.S.Ekzüperinin "Balaca Şahzadə", Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Elçinin "Şeytan əməlləri", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında E.Şmittin "Tanrıya on dörd məktub", Azərbaycan Dövlət Pantomima Teatrında B.Xanızadənin "Xocalı-bu olub" tamaşalarının premyeraları keçirilib.

Ayrı-ayrılıqda götürsək, ölkəmizin mədəniyyət sahəsi rəngarəng tədbirlərlə yadda qalıb. Azərbaycan son dövrlər beynəlxalq əhəmiyyətli festivallara uğurla evsahibliyi etməklə musiqi dünyasının diqqət mərkəzində olub. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən Qəbələ, Mstislav Rostropoviç, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov beynəlxalq musiqi və muğam festivalları, eləcə də digər tədbirlər ölkəmizin mədəni həyatında mühüm hadisəyə çevrilib. Musiqimizin dünya miqyasında, möhtəşəm salonlarda səslənməsi qürur duyulacaq faktlardandır.

2019-cu il 5-9 fevral tarixində Misir Ərəb Respublikasının paytaxtı Qahirədə keçirilən İslam Ölkələrinin Beynəlxalq Mədəniyyət festivalında ölkəmiz də təmsil olunub. 2019-cu il fevralın 16-da Moskva Dövlət Konservatoriyasında tanınmış pianoçu, əməkdar artist, Türkiyədə yaşayan həmyerlimiz, professor Gülşən Ənnağıyevanın, martın 16-da isə N.Mayakovski adına Ağ zalda gənc skripka ifaçısı, Xorvatiya Simfonik Orkestrinin konsertmeysteri Osman Eyublunun iştirakı ilə konsertlər təşkil olunub.

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 yanvar 2019-cu il tarixli fərmanı da xalqımızın qədim tarixə malik mədəniyyətinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində mühüm dövlət sənədi kimi Mədəniyyət Nazirliyinin fəaliyyət planına çevrilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu il martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü zamanı qaldırılan sosial məsələlərin öz həllini tapması bu sahəyə dövlət qayğısı kimi qiymətləndirilir.

Dövlət başçısının verdiyi göstərişlər və imzaladığı sərəncamlar qaldırılan məsələlərin operativ həllini təmin etməklə mədəniyyət ictimaiyyətində, ümumiyyətlə, cəmiyyətimizdə böyük rəğbətlə qarşılanıb.

Xatırladaq ki, böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinin beynəlxalq aləmdə geniş qeyd olunması məqsədilə 18 dekabr 2018-ci ildə Türkiyənin Kastamonu şəhərində keçirilən TÜRKSOY mədəniyyət nazirləri Daimi Şurasının 36-cı toplantısında 2019-cu ilin təşkilata üzv ölkələrdə "Nəsimi ili" elan olunması barədə qərar qəbul edilib. 2019-cu il martın 6-da Türkiyənin paytaxtı Ankarada - TÜRKSOY-un baş qərargahında "Nəsimi ili"nin rəsmi açılış mərasimi olub.

2019-cu ilin mayın 2-3-də Azərbaycan Respublikası Prezidentinin "Bakı prosesi" təşəbbüsü çərçivəsində UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 30 iyun-10 iyul tarixində UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsi nəzərdə tutulub.

Dövlət başçısının 2019-cu ilin "Nəsimi ili" elan olunması, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650, Cəlil Məmmədquluzadənin 150, Cəfər Cabbarlının 120, Tofiq Tağızadənin, İsmayıl Şıxlının, Hacıbaba Hüseynovun 100 illik yubileylərinin qeyd edilməsi haqqında imzalanan sərəncamlara əsasən anım mərasimləri, ədəbi-bədii gecələr təşkil edilir.

"Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" dövlət başçısının imzaladığı 1 mart 2019-cu il tarixli sərəncamda Mədəniyyət Nazirliyinə "Azərbaycan kinematoqrafiyasının inkişaf konsepsiyası"nın hazırlanması tapşırılıb. Azərbaycan Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 yanvar 2019-cu il tarixli fərmanına əsasən, dövlət mülkiyyətində olan muzeylərin inventarizasiyasını apararaq onların fəaliyyətinin optimallaşdırılması ilə bağlı respublikada fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri və muzeylərin siyahısı və statistik göstəricilər toplanılıb, məlumat kataloqu və "museum.az" internet bələdçisinin layihə-dizaynı hazırlanıb.

Bütün bunlarla yanaşı, onu da qeyd edək ki, adıçəkilən fərmana uyğun olaraq, respublikanın bütün ərazisini əhatə edəcək yeni kitabxana-informasiya sistemi də yaradılmaqdadır.

Mədəniyyət siyasətini günümüzün ən güclü vasitəsi adlandıranlar səhv etməyiblər. Silahların darmadağın etdiyi dünyanı mədəniyyət bərpa edib. Buna görə də xalqlar və dövlətlər arasında mədəni əlaqələrin yaradılması və inkişaf etdirilməsi olduqca vacib faktora çevrilib. Tariximizin qədim izlərini özündə qoruyub saxlayan da məhz mədəniyyət abidələri olub.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar çərçivəsində ölkəmizdə beynəlxalq standartlar səviyyəsində mütərəqqi antikorrupsiya qanunvericiliyi formalaşdırılmaqla yanaşı, dövlətimizin bu sahədə beynəlxalq əlaqələri daim inkişaf etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səmərəli əməkdaşlıq əlaqələrinin davamı olaraq, aprelin 17-də Moskvada "Hakimlər və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş İdarəsinin, Korrupsiyaya Qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Rusiya Federasiyası Baş Prokurorluğunun, Xarici İşlər Nazirliyinin və Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə IAP-ın vitse-prezidenti qismində assosiasiyanı təmsil edən baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

Rusiya Federasiyası baş prokurorunun birinci müavini Aleksandr Busmanın, Avropa Şurasının İnsan Haqları və Qanunun Aliliyi Baş İdarəsinin baş direktoru Xristos Yukomolosun, GRECO-nun prezidenti Marin Mrçelanın və digər ali vəzifəli nümayəndələrin iştirak etdikləri tədbirin yüksək səviyyəli hissəsində çıxış edən Kamran Əliyev Rusiya Federasiyası Baş Prokurorluğunun Beynəlxalq Prokurorlar Assosiasiyasının işinə verdiyi töhfələrin, eləcə də Assosiasiyanın rəsmi saytının Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan rus dili versiyasının hazırda Rusiya Federasiyasının Prokurorluğu tərəfindən davam etdirilməsinin qurum tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Bununla yanaşı, Kamran Əliyev ölkəmizdə də aparılan sistemli korrupsiyaya qarşı mübarizə siyasəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən geniş məhkəmə-hüquq islahatları barədə iştirakçılara məlumat verib, bu siyasətin mühüm hissəsini beynəlxalq tərəfdaşlarla əməkdaşlığın təşkil etdiyini vurğulayıb. Buna bariz nümunə kimi Beynəlxalq Prokurorlar Assosiasiyası ilə Azərbaycan Respublikasının prokurorluq orqanları arasında yüksələn xətt üzrə inkişaf edən səmərəli tərəfdaşlıq münasibətlərinin mövcud olduğu göstərilib.

Kamran Əliyev çıxışında, həmçinin təmsil etdiyi beynəlxalq qurumun maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin olunması istiqamətində fəaliyyətinin təşkili ilə bağlı ümumi məsələlərə də toxunub, iştirakçılara IAP-ın Korrupsiyaya Qarşı Mübarizə üzrə Prokurorlar Şəbəkəsinin (NACP) fəaliyyəti barədə ətraflı məlumat verib.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Rusiya Federasiyası baş prokurorunun birinci müavini Aleksandr Busman, Yunanıstan Respublikasının Ali Məhkəməsinin baş prokuroru Kseni Dimitriou-Vasilipolu və digər ölkələrin, habelə bir sıra beynəlxalq təşkilatların təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın perspektivləri müzakirə olunub.

Sonda tədbirin proqramına uyğun olaraq dinlənilən məruzələr müzakirə edilib. Müzakirələrdə hakimlərin və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi istiqamətində səmərəli fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində Kamran Əliyev Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunda təhsil alan azərbaycanlı tələbələrlə də görüşərək onların təhsili ilə maraqlanıb, suallarını cavablandırıb.




*Əvvəli 1-ci səh.*

## İlk çempion italiyalı pilot olub

"Formula-1" dairəvi avtoyürüşləri üzrə dünya çempionatının təşkilatçısı Beynəlxalq Avtomobil Federasiyasının (FIA Sport) idman bölməsidir. Bütün ölkələrdə avtomobil idmanını FIA idarə edir, "Formula-1" də birbaşa ona tabedir. 1904-cü ildə Fransanın paytaxtı Parisdə yaradılan federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-30-cu illərini əhatə edir. Həmin dövrdə təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb oldu. Lakin 2-ci dünya müharibəsinin başlaması ilə bu yarışlara da fasilə verildi. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FIA, formula yarışlarına da yeni qaydalarla start verdi.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olundu.

Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə apardı. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşdü.

Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio oldu. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxdı. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman vermədi.

Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və bir çox başqa ölkələrdə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir.

"Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsüm boyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

İndiyə kimi 7 dəfə dünya çempionu olan almaniyalı Mixael Şumaxer ən yaxşı göstəriciyə malikdir. "Formula-1" üzrə dünya çempionatı cari mövsümdə 21 yarışdan ibarət olacaq. Yarış martın 15-də Avstraliyada başlayıb, noyabrın 29-da Əbu-Dabidə başa çatacaq.



# 1001-ci...







*o 1961-ci ildə Almaniyanın Nyurburqrinq trasında keçirilən 100-cü Qran-prini "Lotus" komandasının pilotu Stirlinq Moss qazanıb.*

*o 1971-ci ildə Monakoda keçirilən 200-cü yarışı "Tyrrell"in üzvü Ceki Styuart qalib başa vurub.*

*o 1978-ci ildə Cənubi Afrika Respublikasında 300-cü Qran-pridə "Lotus"un pilotu Ronni Peterson fərqlənib.*

*o 1984-cü ildə Avstriyanın Tseltveq şəhərində baş tutan 400-cü yarışı "McLaren"in sürücüsü Niki Lauda qazanıb.*

*o 1990-cı ildə 500-cü Qran-prini Avstraliyanın Adelaida şəhərində "Benetton" komandasının üzvü Nelson Pike qalib başa vurub.*

*o 1997-ci ildə Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən 600-cü yarışda "Williams" komandasının pilotu Jak Vilnev qalib gəlib.*

*o 2003-cü ildə 700-cü Qran-prini Braziliyada "Jordan" komandasından Cankarlo Fizikella qazanıb.*

*o 2008-ci ildə "Renault"un pilotu Fernando Alonso Sinqapurda 800-cü Qran-pridə 1-ci yeri tutub.*

*o 2014-cü ildə Bəhreyndə 900-cü Qran-prini "Mercedes"in britaniyalı pilotu Luis Hamilton qazanıb.*

## İştirak üçün super lisenziya vacibdir

Öz nüfuzuna görə dünyanın ən baxımlı idman növlərindən, maraqlı mübarizələrdən sayılan "F1" yarışlarına qatılmaq isə heç də asan başa gəlmir. Sürücülər Qran-pri turnirində çıxış etmək üçün super lisenziya almalıdırlar ki, bu da hər pilota verilmir. Yalnız digər önəmli yarışlarda uğur qazanan və öz komandası ilə normal münasibət saxlayan, FIA qaydalarına əməl edən sürücülər Qran-pri turnirinə qatıla bilərlər.

1950-ci ildə keçirilən "F1" üzrə ilk dünya çempionatında azarkeşlər 2-ci Dünya müharibəsindən əvvəl istehsal olunan avtomobillərin yarışını izlədilər. Bu bolidlərin mühərriki öndə, təkərləri isə enzis və dişli idi. Avtomobillər 1,5 litrlik kompressor və ya 4,5 litrlik normal aspirat mühərriklə işləyirdi. Hər il istər yarış qaydaları, istərsə də avtomobillərin texniki göstəriciləri və dizaynında müxtəlif dəyişikliklər edilib. Mühərrikin həcmi, avtomobilin sürəti və təkərlər müasir dövrün tələblərinə uyğun dəfələrlə yenilənib.

Komandalar və konstruktorların yenilik, sürət və qələbə uğrunda mübarizəsini FIA tənzimləyir. Beynəlxalq Avtomobil Federasiyası yarış qaydalarında müəyyən dəyişikliklər etməklə turnirin daha şəffaf və sağlam keçirilməsini, həmçinin pilotların təhlükəsizliyini təmin edir.

## 1000-ci Qran-prinin qalibi "Mercedes" oldu

Xatırladaq ki, aprelin 14-də Çinin Şanxay şəhərində keçirilən "Formula-1" tarixinin 1000-ci Qran-Prisi "Mersedes" komandasının böyük qələbəsi ilə başa çatıb. Komandanın pilotları - britaniyalı Luis Hamilton və finlandiyalı Valtteri Bottaş finiş xəttinə müvafiq olaraq birinci və ikinci çatıblar. Üçüncü yeri isə "Ferrari"nin almaniyalı pilotu Sebastian Fettel tutub.

Cari mövsümün üçüncü Qran-prisində Luis Hamilton 56 dövrəni 1 saat 32 dəqiqə 6,350 saniyəyə qət edib. Onun komanda yoldaşı Valtteri Bottaş finiş xəttinə liderdən 6,552 saniyə gec çatıb. Sebastian Fettel isə liderə 13,744 saniyə fərqlə uduzub. "Toro Rosso"nun pilotu Daniel Kviat və "Reno"nun sürücüsü Niko Hülkenberq mübarizəni başa çatdıra bilməyiblər.

Cari mövsümün ilk iki Qran-prisi də "Mersedes" komandasının qələbəsi ilə başa çatıb. Belə ki, martın 17-də Avstraliya Qran-prisində Valtteri Bottaş, martın 31-də Bəhreyn yarışında isə Luis Hamilton qalib gəliblər.

Beləliklə, üç Qran-pridən sonra pilotların yarışına 44 xalla Valtteri Bottaş liderlik edir. Luis Hamilton ondan 1 xal geri qalır. "Red Bull Racing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 27 xalla üçüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 26 xalla dördüncü pillədə qərarlaşıblar.

Konstruktorların yarışında isə "Mersedes" komandası 130 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan "Ferrari" komandasının 73, üçüncü pillədəki "Red Bull Racing Honda"nın 52 xalı var.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov aprelin 18-də Biləsuvar rayonunda Ağcabədi, Beyləqan, Biləsuvar və İmişli rayonlarından olan vətəndaşları qəbul edib. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbulda 19 vətəndaş iştirak edib.

Müraciətlər gənclər və idman sahələri, Gənclər evlərinin fəaliyyəti, Olimpiya İdman komplekslərinin, eyni zamanda, digər idman qurğularının tikintisi və təmiri, idman avadanlığının verilməsi ilə bağlı olub.

Bununla yanaşı, vətəndaşlar şəxsi məsələ, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi ilə bağlı da müraciət ediblər.

Qəbulda bir sıra müraciətlər yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib.

Müraciətlərin bir qismi isə baxılması üçün icraya yönəldilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, aprelin 18-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Sumqayıt şəhərində vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə Ali Məhkəmənin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar şəhər sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# Çində nəşr olunan "Lookwe" jurnalının aprel buraxılışı Azərbaycana həsr olunub




Çində ingilis və Çin dillərində nəşr edilən "Lookwe" jurnalının aprel buraxılışı Azərbaycana həsr olunub.

AZƏRTAC xəbər verir ki, nəşrdə Azərbaycan haqqında ümumi məlumatlar, son dövrlərdə baş tutan yüksək səviyyəli qarşılıqlı səfərlər, o cümlədən Prezident İlham Əliyevin 2015-ci ildə Çinə dövlət səfərinə dair ətraflı məlumat əksini tapıb.

Ölkəmizin Pekindəki səfirliyinin təqdim etdiyi materiallar əsasında nəşr edilən jurnalda Azərbaycan iqtisadiyyatının əsas sahələri, ölkənin tranzit imkanları, biznes və investisiya mühiti, ixrac imkanları, Bakının və regionların turizm potensialına dair məqalələr, həmçinin Azərbaycanın UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilən mədəniyyət nümunələri olan muğam musiqisi, aşıq sənəti, tar ifaçılığı, "Yallı" rəqsi, xalçaçılıq sənəti, dolma hazırlama ənənəsi barədə, Qarabağın tarixi və mədəniyyəti haqqında məlumatlar verilib.



Fotoşəkillərlə zəngin jurnalın nüsxələri dövlət qurumlarına, ali təhsil ocaqlarına, tədqiqat mərkəzlərinə, iri şirkətlərə göndərilib.



# Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsəri gürcü dilinə tərcümə olunub

Görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsəri gürcü dilinə tərcümə olunub.

AZƏRTAC xəbər verir ki, “Azərbaycan aləmi” Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə tərcümə olunmuş kitab ədibin ad günü ərəfəsində gürcü oxuculara təqdim ediləcək.

Mədəniyyət mərkəzinin sədr müavini Sevil Yusifova deyib ki, kitabı gürcü dilinə tərcümə etməkdə məqsəd gürcü oxucuları görkəmli ədəbiyyatşünas-alim Mir Cəlal Paşayevin yaradıcılığı ilə tanış etməkdir. “Ümid edirik ki, bu kitab Gürcüstanda maraqla qarşılanacaq və gürcü oxucular tərəfindən çox seviləcək” deyə Sevil Yusifova vurğulayıb.

Sevil Yusifova deyib ki, Mərkəz bu yolla həm də Azərbaycan ilə Gürcüstan arasında mədəni, ədəbi əlaqələri inkişaf etdirmək niyyətindədir. Bu məqsədlə gələcəkdə Azərbaycan və gürcü ədiblərinin, elm adamlarının əsərlərinin də qarşılıqlı olaraq hər iki dilə tərcümə edilməsi nəzərdə tutulur.

# ADA Universitetində 44 ölkənin milli mədəniyyət nümunələri sərgilənib







Aprelin 18-də ADA Universitetinin Tələbə Mərkəzində təşkil olunmuş sərgidə əcnəbi tələbələr və xarici dövlətlərin səfirlikləri stendlər quraraq ölkələrinin milli mədəniyyətlərini, kulinariyasını, incəsənət nümunələrini nümayiş etdiriblər.

AZƏRTAC xəbər verir ki, sərgi VIII Beynəlxalq Festival çərçivəsində təşkil olunub. Artıq ənənəyə çevrilmiş festivalda bu il 44 ölkə və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi iştirak edib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə hazırda bu ali təhsil ocağında 40 ölkədən yüzə yaxın xarici tələbənin təhsil aldığını deyib. Qeyd edib ki, onların bir hissəsi Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən Əlimərdan bəy Topçubaşov adına beynəlxalq təqaüd proqramını qazananlardır. Bugünkü festivalda xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirliklərinin nümayəndələri, beynəlxalq təşkilatların əməkdaşları, habelə azərbaycanlı və əcnəbi tələbələr iştirak edirlər. Əvvəlki festivallarla müqayisədə bu festivalda daha çox qonaq iştirak edir.

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Dəftərxana ləvazimatlarının satın alınmasına dair açıq tenderin nəticələri barədə bildiriş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 15.03.2019-cu il tarixdə keçirilmiş Dəftərxana ləvazimatlarının satın alınması üzrə açıq tender üsulu ilə satınalmaya dair müsabiqədə “A4 Plazat” MMC ƏDV daxil olmaqla 48.607,92 (qırx səkkiz min altı yüz yeddi manat 92 qəpik) manat məbləğlə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 15 aprel 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata açıq tenderdə iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Qablaşdırılmış içməli suların satın alınmasına dair kotirovka sorğusunun nəticələri barədə bildiriş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 05.03.2019-cu il tarixdə keçirilmiş Qablaşdırlmış içməli suların satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “Mineral Sular” MMC ƏDV daxil olmaqla 15.873,36 (on beş min səkkiz yüz yetmiş üç manat 36 qəpik) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 15 aprel 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalında kreditləşməyə dair Strateji Yol Xəritəsinin hazırlanması xidmətinin satın alınmasına dair kotirovka sorğusunun nəticələri barədə bildiriş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 11.03.2019-cu il tarixdə keçirilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalında kreditləşməyə dair Strateji Yol Xəritəsinin hazırlanması xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi 33.700,00 (otuz üç min yeddi yüz) manat məbləğlə qalib elan olunmuşdur və qalib gəlmiş iştirakçı ilə 15 aprel 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər iştirakçılara təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Beynəlxalq görüş və tədbirlərdə tərcümə xidmətlərinin göstərilməsinin satın alınmasına dair kotirovka sorğusunun nəticələri barədə bildiriş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 11.03.2019-cu il tarixdə keçirilmiş Beynəlxalq görüş və tədbirlərdə tərcümə xidmətlərinin göstərilməsinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə fiziki şəxs Anar Əhmədov 15.000,00 (on beş min) manat məbləğlə qalib elan olunmuşdur və qalib gəlmiş iştirakçı ilə 15 aprel 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər iştirakçılara təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

# Qlobal rəqəmsallaşma prosesləri və Azərbaycan üçün açılan imkanlar

Dünya sürətlə rəqəmsallaşır və müxtəlif dövlətlər rəqəmsallaşma prosesinin sosial və iqtisadi həyata daha sürətli inteqrasiyası üçün proqramlar hazırlayaraq tətbiq edir, böyük korporasiyalar rəqabətdən geri qalmamaq üçün yüksək texnologiyalar vasitəsilə irihəcmli məlumatları emal edir, vətəndaşlar isə rəqəmsal texnologiyalardan hər gün getdikcə daha çox istifadə edirlər.



Hazırda mobil cihazların sayında sürətli artım, sosial medianın sərhədləri aşması və gündəlik həyatımızın bir hissəsinə çevrilməsi, məlumatların artıq fiziki cihazlar deyil, bulud texnologiyalarında saxlanılması, Data Mərkəzlərin sayının davamlı şəkildə artması rəqəmsallaşma proseslərinin sürətlə həyata keçməsinin göstəricisidir.

Rəqəmsallaşama qlobal iqtisadiyyatın böyüməsi ilə nəticələnir. Nüfuzlu konsaltinq şirkəti olan “McKinsey Qlobal İnstitutu”nun hesablamalarına əsasən, dünya üzrə rəqəmsallaşma və ən son rəqəmsal texnologiyalardan istifadə 2025-ci ilə qədər dünya üzrə ÜDM-də (ümumi daxili məhsul) 3-6 trilyon ABŞ dolları səviyyəsində artıma səbəb olacaq. Təşkilat bu artımın əsasən 12 növ yüksək texnologiyaların (mobil internet, qabaqcıl robotlaşma, bulud texnologiyaları, bərpaolunan enerji, əşyaların interneti və s.) inkişafı sayəsində baş verəcəyini proqnozlaşdırır.

Hesablamalara əsasən, Avropa rəqəmsal transformasiya bazarı 2018-ci ildə 256 milyard ABŞ dolları səviyyəsinə qədər artıb. Hazırda Avropa regionu transformasiya texnologiyalarının alışı üzrə ABŞ və Çindən sonra üçüncü yerdə qərarlaşıb. “IDC” (International Data Corporation) təşkilatı və “Citrix” şirkətinin (kompüter şəbəkələrinin yaradılması, bulud hesablamaları və virtualizasiya üçün proqram həlləri sahələrində ixtisaslaşmış şirkət) məlumatlarına əsasən, hazırda dünya üzrə böyük şirkətlər rəqəmsallaşma üzrə reallıqları dərk edir, bulud texnologiyalara istiqamətlənir, rəqəmsal transformasiyaya gedir və ya öz şəbəkə infrastrukturlarını modernizasiya edirlər.

“IDC” və “Seagate” (ABŞ-ın texnologiya şirkəti) təşkilatları qeyd edir ki, hazırda rəqəmsallaşma və rəqəmsal kontentin yaradılması nəticəsində baza, periferik və son istifadəçi cihazlarında toplanılan məlumatların (qlobal məlumat sferası) həcmi sürətlə artır və 2018-ci ildə qlobal məlumat sferasının həcmi 33 zettabayt təşkil edib, 2025-ci ilə qədər isə bu rəqəmin 175 zettabayt olması, yəni beşqat artımı gözlənilir. Hazırda qlobal məlumat sferasında illik olaraq ən sürətli artım Çinin (Çin bulud həllərin tətbiqi üzrə də ən sürətlə inkişaf edən ölkə hesab olunur), ikinci yerdə Asiya-Sakit okean regionunun (Çin daxil olmamaqla), daha sonra isə Avropa, Yaxın Şərq və Afrika regionlarının payına düşür. ABŞ isə bulud texnologiyalar sənayesinin liderlərinin mənzil qərargahının yerləşdiyi dövlətdir və bu ölkə ənənəvi olaraq məlumatların bulud sistemlərində saxlanılması üzrə əsas yeri tutub.

## Müxtəlif dövlətlər rəqəmsallaşma üzrə fərqli təşəbbüslər tətbiq edir

Rəqəmsallaşma, rəqəmsal iqtisadiyyatın yaradılması istehlakçılar, dövlətlər və ümumilikdə cəmiyyətlər üçün mühüm imkanlar açır. Dünyada rəqəmsal iqtisadiyyatın tətbiqi üzrə ən qabaqcıl dövlətlər sırasında Sinqapur, Çin, Cənubi Koreya, Yeni Zelandiya və Danimarka qeyd edilə bilər. Bu dövlətlər rəqəmsallaşma, yüksək texnologiyaların tətbiqi istiqamətlərində mühüm təşəbbüslər reallaşdırıblar. Məsələn, Sinqapur 2014-cü ildə özünün “Smart Nation” konsepsiyasını irəli sürüb, biznes və ekspert ictimaiyyətini bu konsepsiyanın reallaşmasına dəvət edib. “Smart Nation” konsepsiyası vətəndaşların gündəlik həyatına rəqəmsallaşmanın tətbiqi ilə həyatın keyfiyyətinin yüksəldilməsinə xidmət edən dövlətin təşəbbüsüdür. Bu konsepsiyanın reallaşması üçün dövlət müxtəlif təşəbbüslər reallaşdırıb və konsepsiyanın reallaşmasında təkcə iri şirkətlər deyil, həmçinin orta və kiçik biznes də iştirak edib.

Çin rəqəmsal iqtisadiyyat quruculuğu üzrə özünün “İnternet Plyus” proqramında rəqəmsal sənaye ilə ənənəvi sənayeni inteqrasiya edir, Kanada Torontoda İKT Hab yaradır, Sinqapur informasiya və kommunikasiya texnologiyalarının (İKT) əsas təşkil etdiyi “Ağıllı iqtisadiyyat” qurur, Cənubi Koreya “Kreativ iqtisadiyyat” proqramında insan kapitalının inkişafı, sahibkarlıq və İKT nailiyyətlərinin yayılmasına istiqamətlənir, Danimarka isə dövlət sektorunun rəqəmsallaşmasına diqqəti cəmləşdirir.

Rəqəmsallaşma, rəqəmsal iqtisadiyyat quruculuğu hazırda həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlər üçün əsas istiqamət hesab olunur.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün də geniş imkanlar açır. Sənaye 4.0 (Dördüncü Sənaye İnqilabı) şəraitində *Azərbaycan özünün yerləşdiyi əlverişli coğrafi mövqe (regionun enerji mərkəzi, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzi), zəngin təbii sərvətləri və insan resurslarından istifadə etməklə* qısa zamanda yeni sıçrayışla inkişaf edə və dünya üzrə İKT sahəsində yeni trendlərin ölkədə tətbiqinə nail ola bilər. Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu ölkənin dayanıqlı inkişafı üçün yeni pəncərə aça bilər.

## Azərbaycanın rəqəmsallaşması üçün mühüm imkanlar mövcuddur

“Sənaye 4.0” şəraitində Azərbaycanda rəqəmsallaşma İKT sahəsində müvafiq yeni infrastruktur quruculuğunu, mövcud infrastrukturun modernizasıyasını, yeni texnologiyaların tətbiqini özündə ehtiva edir.

Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın yaradılması üçün də əsas baza informasiya və kommunikasiya texnologiyalarının inkişafıdır. İnkişaf edən İKT infrastrukturunun əsasını isə internetə genişzolaqlı çıxış təşkil edir. Genişzolaqlı çıxış isə bir qayda olaraq FTTx (hər hansı nöqtəyə fiberoptik kabelin çəkilişi), 4G (gələcəkdə 5G) və peyk rabitəsi vasitəsilə təmin edilir.

Azərbaycanda İKT sektorunun inkişaf etdirilməsi üçün son illər həm dövlət, həm də özəl sektor tərəfindən mühüm addımlar atılıb. Ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən bu sektorun davamlı inkişafına istiqamətlənən mühüm dövlət proqramları, sərəncamlar qəbul edilib.

Təqdirəlayiq haldır ki, hazırda ölkədə rəqəmsal baza infrastrukturun qurulması, İKT sektorunun dayanıqlı inkişafı istiqamətində özəl sektor da mühüm təşəbbüslər irəli sürür. Son olaraq bu təşəbbüslərdən biri də *Azərbaycanın hazırkı Enerji və Nəqliyyat Mərkəzi statusuna əlavə olaraq ölkənin həm də regional rəqəmsal mərkəzə çevrilməsi üçün irəli sürülən və hazırda icrası davam edən “Azerbaijan Digital Hub” proqramıdır.* Ölkənin telekommunikasiya sektorunun ən iri oyunçularından biri olan Azərbaycanın ilk mobil operatoru “Bakcell” şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi “AzerTelecom” şirkəti tərəfindən Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün icra edilən “Digital Hub” proqramı ölkədə telekommunikasiya sahəsində təkcə yeni magistral infrastruktur quruculuğunu deyil, həmçinin Azərbaycanın rəqəmsallaşmasına mühüm töhfə verilməsini özündə ifadə edir.

“Digital Hub” proqramının icrası Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Regional Rəqəmsal Mərkəzə çevrilməsini, dünyanın internet xəritəsinə Frankfurt, London, Sofiya, Moskva, İstanbul şəhərləri kimi, Bakının da yeni internet mübadilə mərkəzi olaraq əlavə edilməsini, iri kontent istehsalçıları olan brendlərin (Amazon, Apple, Alibaba, Facebook, Google, Netflix, Tencent və s.) Azərbaycanda öz nümayəndəliklərini açmasını, burada müxtəlif rəqəmsal xidmətlərin və həllərin yaradılmasını və bu xidmətlərin məhz “Made in Azerbaijan” brendi altında ətraf region dövlətlərinə ixracını özündə ehtiva edir. Proqram ölkədə mərkəşləşdirilmiş blokçeyn texnologiyasının tətbiqini, müxtəlif sahələrdə bu platformanın istifadəsini də mümkün edəcəkdir.

“AzerTelecom” şirkətinin icra etdiyi “Digital Hub” proqramı həmçinin rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın qurulması ilə ölkə ÜDM-nin artımına töhfənin verilməsini, Xəzər dənizinin dibi ilə magistral fiberoptik kabel xəttinin çəkilişini (Transxəzər layihəsinin bir hissəsi olan Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzərin dibi ilə ümumi uzunluğu 380-400 km olan magistral xəttin çəkilməsi üçün Azərbaycan və Qazaxıstan arasında dövlətlərarası saziş imzalanıb), Avropa-Asiya arasında “Rəqəmsal İpək yolu” dəhlizinin yaradılmasını, qonşu dövlətlərin magistral infrastruktur şəbəkələrinin məhz Azərbaycanda birləşməsini, ümumilikdə isə yeni bir telekommunikasiya, rəqəmsal arxitekturanın qurulmasını nəzərdə tutur.

Eyni zamanda “Digital Hub” proqramı ilə Azərbaycanın rəqəmsallaşması onun Çinin qlobal proqramı olan *“One Belt, One Road İnitiative”* *layihəsində iştirakına töhfə verəcək, Azərbaycanın bu layihənin Avropa-Asiya arasında telekommunikasiya dəhlizinə (Rəqəmsal İpək yolu) çevrilməsini* təmin edəcək.

Xüsusilə bildirmək lazımdır ki, “Digital Hub” proqramının icrası dövlət investisiyası cəlb olunmadan ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanların yaranmasına, qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin açılmasına (rəqəmsal sahədə 1 yeni iş yeri iqtisadiyyatın digər əlaqəli sektorlarında 3-4 yeni iş yerlərinin yaranmasına səbəb olur), İKT sahəsində xaricə hər hansı “beyin axını”nın qarşısının alınmasına, müxtəlif elektron xidmətlərin inkişafına və ölkənin kibertəhlükəsizliyinin təmin edilməsinə, rəqəmsal infrastruktur quruculuğuna, eləcə də beynəlxalq reytinqlərdə Azərbaycanın daha öncül mövqelərə çıxmasına imkan verəcəkdir.

***Fuad ALLAHVERDİYEV,***
***“AzerTelecom” MMC-nin***
***Baş icraçı direktoru,***
***“Azerbaijan Digital Hub”***
***proqramının müəllifi və rəhbəri***

# Amerikalı mütəxəssis tələbələri narkomaniyanın təhlükəli fəsadları barədə məlumatlandırıb

Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində “Mən öz gələcəyimi seçirəm” mövzusunda növbəti seminar aprelin 18-də Azərbaycan Texniki Universitetində təşkil edilib.

Seminar Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planının yeddinci bəndinin icrası ilə əlaqədar keçirilib.

AZƏRTAC xəbər verir ki, aidiyyəti dövlət qurumlarının nümayəndələrinin, universitetin müəllim və tələbə kollektivinin iştirak etdikləri tədbirdə narkotik vasitələrin cəmiyyətə, insanların sağlamlığına mənfi təsirləri barədə videoçarx nümayiş olunub.

Seminarda çıxış edən universitetin rektor əvəzi, professor Xalıq Yahudov narkotiklərin insan orqanizminə məhvedici təsirləri, törətdiyi sosial bəlalara qarşı mübarizənin gücləndirilməsi üçün ölkəmizin təhsil ocaqlarında maarifləndirici tədbirlərin keçirilməsindən danışıb. O deyib ki, Bakıda XXXVI beynəlxalq konfransın keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev 2018-ci il noyabrın 15-də sərəncam imzalayıb, müvafiq qurumlarla birgə tədbirlər planı hazırlanaraq təsdiq olunub. Qeyd edilib ki, narkomaniyaya qarşı mübarizə daim dövlətimizin diqqət mərkəzindədir və bu sahədə atılan addımlar müsbət nəticələrini verməkdədir. Dövlət başçısı tərəfindən bununla bağlı sərəncamlar imzalanıb və müvafiq dövlət proqramları qəbul edilərək həyata keçirilib. Qeyd olunan sənədlərdə gənclərin sağlamlığının qorunması, onların zərərli vərdişlərdən uzaqlaşdırılması məsələləri öz əksini tapıb. Rektor cəmiyyətin bütün üzvlərinin bu sosial bəla ilə mübarizə aparmasının, narkomaniyanın qarşısının alınmasında sağlam həyat tərzinin gənclər arasında təbliğinin vacibliyini vurğulayıb.

Konfrans çərçivəsində təbliğat xarakterli müxtəlif tədbirlərin keçirilməsinin yeniyetmələrin və gənclərin narkomanlığın yayılması ilə mübarizədə maarifləndirilməsinə xidmət etdiyi diqqətə çatdırılıb. Bu məqsədlə xarici ölkələrdən aparıcı ekspertlər seminarlar təşkil etmək üçün Azərbaycana dəvət ediliblər. Belə maarifləndirici tədbirlərin “ağ ölüm”ün qarşısının alınması baxımından əhəmiyyəti qeyd edilib.

Seminarda Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin San-Dieqoda fəaliyyət göstərən əməkdaşı, IDEC Konfransının “Tələbatın Azaldılması Təhsil Proqramı”nın təşkilatçısı, tanınmış mütəxəssis Rokuelle Herronun mühazirəsi dinlənilib. O, IDEC konfransı və onun “Tələbatın Azaldılması Təhsil Proqramı” barədə danışıb. Bakıda keçirilmiş konfransın əhəmiyyətini xüsusi vurğulayan Rokuelle Herron əsas məqsədin narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə yolları və üsullarının müxtəlif ölkələrin nümayəndələri ilə birlikdə müzakirəsi olduğunu bildirib. Tədbirin narkotiklərlə mübarizə sahəsində ölkələr arasında təcrübə mübadiləsinin aparılması və bu təhlükəyə qarşı birgə əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmini vurğulayıb. O, indiyədək gənclərə narkotikin zərərləri barədə Azərbaycan daxil olmaqla 10-dan çox ölkədə 500-dən çox təqdimatla təxminən 95 min şagird və tələbə qarşısında çıxış etdiyini bildirib.

Təqdimat barədə danışan amerikalı mütəxəssis diqqətə çatdırıb ki, tədbirin məqsədlərindən biri narkotiklərdən qeyri-qanuni istifadə ilə bağlı ABŞ-da olan problemlər barədə azərbaycanlı şagird və tələbələri məlumatlandırmaqdır. Narkotiklərdən qeyri-qanuni istifadə bütün dünyada yayılmış bir problemdir və ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası tərəfindən gənclərin narkotiklərdən istifadədən uzaq durması məqsədilə bu cür maarifləndirmə seminarları keçirilir.

Rokuelle Herron müasir dövrün sosial bəlalarından olan narkomaniya və onun fəsadları barədə danışıb. O, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığa düçar olanların müalicə edilməklə sağlam həyata qaytarılmasının önəmini qeyd edib. Mühazirədə ABŞ-da narkotiklərdən istifadənin fəsadlarından, onun qurbanlarının ilbəil artmasından bəhs olunub. Bildirilib ki, hər il ABŞ-da minlərlə gənc bu bəla nəticəsində həyatını itirir.

“Biz bu proqramla tələbələrə, şagirdlərə, ümumiyyətlə, gənclərə narkotik vasitələrin insanların həyatına mənfi təsir göstərdiyinə dair məlumat veririk. İnanırıq ki, narkotik vasitələrin zərərləri barədə məlumat sayəsində gənclər həyatlarında doğru seçim edəcəklər. Çünki gənclərin bugünkü seçimləri onların gələcək həyatlarını müəyyənləşdirəcək. Ümid edirik ki, Azərbaycanda gənclər öz gələcəklərini düzgün istiqamətdə seçəcəklər” deyə narkotiklərlə mübarizə idarəsinin əməkdaşı vurğulayıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

*Təkrar*

# Azərbaycan Respublikası Vergilər Nazirliyi mebel avadanlıqlarının satın alınması üçün *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 17 may 2019-cu il tarixdə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *iştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *iştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iştirakçının bank rekvizitləri barədə məlumat;*
- *iştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *mebel avadanlıqlarının uyğunluq sertifikatları və mallar daxili istehsal olduqda istifadə olunası xammalın mənşə sertifikatları, xarici istehsalçı vasitəsilə təqdim edildikdə mebel avadanlıqlarının mənşə sertifikatları;*
- *31 dekabr 2018-ci il tarixə iştirakçının mebel avadanlıqlarının anbar qalığı barədə məlumat;*
- *iştirakçının istehsal sahəsi haqqında məlumat (mülkiyyət hüququnu təsdiq edən sənədin və ya icarə müqaviləsinin notarial qaydada təsdiq edilmiş surəti);*
- *təqdim ediləcək mebel avadanlıqlarının və avadanlığın istifadə olunacaq bütün növ mexanizmlərinin keyfiyyətinə 2 (iki) il müddətinə zəmanət məktubu;*
- *tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 7 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 1 000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Hesab №: AZ65CTRE00000000000002118401**
**VÖEN: 1300204521**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T.BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı16 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 31 dekabr 2019-cu il tarixədək.

Malların təqdimedilmə müddəti: hər sifarişdən sonra 10 təqvim günü.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi.**
**Əlaqələndirici şəxs: Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 14.03.2019-cu il tarixdə keçirilmiş Depo ərazisindəki birləşmiş emalatxanalar və eskalatorların təmir sexlərinin havalandırma sisteminin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Besten" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 17.04.2019-cu il tarixdə ƏDV daxil 145 942,40 (yüz qırx beş min doqquz yüz qırx iki manat 40 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Gədəbəy Rayon İcra Hakimiyyəti Gədəbəy rayonunda məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində haqqı ödənilən ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi məqsədilə geyim və inventarın təkliflər sorğusu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 29 aprel 2019-cu il saat 15:00-a kimi qəbul olunur.

**Ünvan: Gədəbəy rayonu, M.C.Paşayev küçəsi, 3.**

***Tender komissiyası***

## Portuqaliyada Almaniyanın 29 vətəndaşı həlak oldu



Portuqaliyanın Madeyra adasında baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində 29 nəfər həlak olmuşdur. Portuqaliya Prezidenti Marselu Rebelu de Souzanın dediyinə görə, həlak olmuş turistlərin hamısı Almaniya vətəndaşlarıdır.

Yerli xilasetmə xidmətlərinin məlumatına görə, qəza Funşal adasının inzibati mərkəzinin şərqində yerləşən Kanisu qəsəbəsində baş vermişdir. 50-yə yaxın turisti daşıyan avtobus döngədə idarəetməni itirmiş və yoldan çıxaraq yaşayış evinin damına düşmüşdür. Kanisu meri Felipe Souzanın dediyinə görə, hadisə yerində 11 kişi və 17 qadın həlak olmuşdur. Daha bir qadın aldığı yaradan xəstəxanada dünyasını dəyişmişdir.

Portuqaliyanın "Lusa" agentliyi xəbər verir ki, qəza nəticəsində azı 27 nəfər yaralanmışdır. Onlar yaxınlıqdakı xəstəxanalara çatdırılmışlar. Faciə ilə əlaqədar adanın hakimiyyət orqanları üçgünlük matəm elan etmişdir.

## Yunanıstan Almaniyadan yeni təzminat tələb edir



Yunanıstan parlamenti İkinci Dünya müharibəsi dövründə vurulmuş ziyana görə Almaniyaya qarşı təzminat tələbi irəli sürmək təklifini qəbul etmişdir. Ölkə hökumətinin zəruri diplomatik və hüquqi hərəkətləri həyata keçirməsi üçün müvafiq müraciət Nazirlər Kabinetinə göndəriləcək. Bu barədə yerli KİV xəbər verir.

Deputatların əksəriyyəti qətnamənin lehinə səs vermişdir. Parlamentarlar vurğulayırlar ki, təzminat məsələsi indiyədək həll olunmayıb, Birinci və İkinci Dünya müharibələrindən dəymiş itkilərlə bağlı Yunanıstanın Almaniyaya qarşı iddiaları isə hələ də cavabsız qalır. Bundan əvvəl təşəbbüsü Yunanıstanın Baş naziri Aleksis Sipras dəstəkləmişdir. Onun dediyinə görə, Berlindən təzminat tələb etmək Afinanın tarixi və mənəvi borcudur.

2015-ci ildə Yunanıstan faşistlərin vurduğu ziyanı 278,7 milyard avro məbləğində qiymətləndirmişdir. Berlin 1960-cı ildə Yunanıstana 115 milyon alman markası ödədiyini əsas gətirərək yeni təzminat verməkdən imtina edir.

Cari ayın əvvəllərində Polşa hökuməti bildirmişdir ki, Almaniyadan təzminat kimi azı 900 milyard dollar istəyir.

*Təkrar*

# Azərbaycan Respublikasının Energetika Nazirliyi *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ enerji mənbələri ilə təminatı məsələsinin araşdırılması və müvafiq təkliflərin hazırlanmasına dair iş və xidmətlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinin 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Gülnarə Nuriyeva (telefon 598 16 53/54 - daxili 1130, mob: +994504502085)

İştirak haqqı **450** manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN: 1300087531**
**Hesab №: AZ44CTRE00000000000002218301**
**Təyinatı mütləq yazılmalıdır!**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faiz** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) hüquqlarını, ixtisaslarını və ixtisas göstəricilərini təsdiq edən sənədlər;*
- *iddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) işçi heyətinə (mütəxəssislər, ekspertlər) daxil olacaq mütəxəssislərin peşəkarlığını və təcrübəsini təsdiq edən sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 may 2019-cu il saat 12:00-a** qədər, tender təklifi, bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 may 2019-cu il saat 12:00-a** qədər Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinin 13-cü mərtəbəsində yerləşən ofisinə (Ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 may 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinin 12-ci mərtəbəsində yerləşən ofisində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1. "Bakı Telefon Rabitəsi" MMC-nin vəsaiti hesabına 3000 (üç min) ədəd LTE avadanlıqları və 3000 (üç min) ədəd U-SİM kartların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **LOT 1 üzrə 300 (üç yüz) manat iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı sənədləri **13 may 2019-cu il saat 17:00-dək** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21 may 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **22 may 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Talassemiya Mərkəzi PHŞ tərəfindən elan edilmiş dərman, sarğı ləvazimatları və materiallarının təkliflər sorğusu üsulu ilə satın alınmasına 09.03.2019-cu il tarixə kimi LOT 5 (Maye azot və oksigenin alışı) üzrə heç bir təklif daxil olmadığından LOT 5 ləğv olunmuşdur.

***Tender komissiyası***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları

**GÖHƏR NAĞI QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova və Həmid Bağırova əzizləri

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9096
Sifariş 1255
Qiyməti 40 qəpik